**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC BİZNES MƏKTƏBİ**

**UNEC Biznes Məktəbinin direktoru**
**i.e.n., dos. Hacıyev Nazim Özbəy oğlu**
**“____________________” imza**
**“___” ____________ 2024-cü il**

# “AZƏRBAYCANIN AQRAR SEKTORUNDA LAYİHƏLƏRİN SƏMƏRƏLİLİYİ: TƏCRÜBƏ VƏ PERSPEKTİVLƏR”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYA İŞİ

**İxtisasın şifri və adı:** 060409 Biznesin idarə edilməsi
**İxtisaslaşma:** Layihələrin idarə edilməsi
**Qrup:** A 14-22


**Magistrant**
**Hüseynli Aysel Bahadur**
**_________________imza**

**Elmi rəhbər**
**i.e.n., dos. Bağırzadə Murad Manaf**
**__________________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., Şəfizadə Elnurə Rafiq**
**_____________________imza**

**Kafedra müdiri**
**i.e.n., dos. Məmmədova Sevər Mömin**
**___________________________imza**


**BAKI – 2024**

# AZƏRBAYCANIN AQRAR SEKTORUNDA LAYİHƏLƏRİN SƏMƏRƏLİLİYİ: TƏCRÜBƏ VƏ PERSPEKTİVLƏR


## Xülasə

**Dissertasiya işinin aktuallığı:** Məlumdur ki, qeyri-neft sektorunun, eləcə də emal sənayesinin inkişafının, regionların sosial-iqtisadi inkişafının, respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sektorun əsas inkişaf strategiyaları hesab edilir. Bu istiqamətdə hazırda dövlət proqramları və çoxsaylı layihələr icra edilməkdədir. Dissertasiya işində sözügedən tədbirlərlə bağlı təhlillər edilərək onların nəticələri qiymətləndirilmişdir.

**Dissertasiya işinin məqsədi:** Tədqiqatın məqsədi ölkəmizdə kənd təsərrüfatı sektorunda icra olunan layihələrin təhlilinin aparılması və nəticələrinin qiymətləndirilməsidir.

**Dissertasiya işində istifadə edilmiş biznes tədqiqat metodları:** Dissertasiya işinin tədqiqat metodlarını regionlarda həyata keçirilən aqrar layihələrin detallı təhlili və nəticələrinin müqayisəsi, aqrar sektorla bağlı statistik məlumatların və hesabatların təhlili, layihələrin səmərəliliyinin qiymətləndirilməsi təşkil edir.

**Dissertasiya işinin informasiya bazası:** Aqrar sahə üzrə mövcud qanunvericilik, aidiyyəti dövlət orqanlarının kütləvi informasiya vasitələrində, rəsmi saytlarında, eləcə də rəsmi nəşrlərində yayımlanan statistik məlumatları, mövzu üzrə digər analitik məlumatlar, məqalələr və digər ədəbiyyat resursları dissertasiya işinin əsas informasiya bazasını təşkil edir.

**Dissertasiya işinin məhdudiyyətləri:** Ölkəmizdə aqrar sahə üzrə həyata keçirilən bir sıra layihələrlə bağlı bəzi statistik məlumatlara, sözügedən sahə üzrə tamamlanmış bir neçə layihərin keyfiyyət göstəricilərinin əldə edilməsinə, ölkəmizdə aqrar sektorun mövcud vəziyyətinin qiymətləndirilməsi ilə bağlı aidiyyəti üzrə rəsmi məlumatlara tam şəkildə əlçatanlığın olmaması tədqiqat zamanı qarşılaşılan əsas məhdudiyyətlər olmuşdur.

**Dissertasiya işinin praktik nəticələri:** Tədqiqat zamanı sahə üzrə mövcud çatışmazlıqlar və ehtiyaclar müəyyənləşdirilərək, onların aradan qaldırılması istiqamətində həyata keçirilməli tədbirlərlə bağlı müvafiq təkliflər dissertasiya işində qeyd edilmişdir.

**Nəticələrin istifadə oluna biləcəyi təşkilat, müəssisə və biznes sahələri:** Dissertasiya işinin yazılması zamanı aparılan araşdırma nəticəsində əldə edilən nəticələr aqrar sektorun inkişafına, səmərəliliyin artırılmasına və dayanıqlı kənd təsərrüfatı təcrübələrinin təşviqinə yönəlmiş layihələrin planlaşdırılması və icra edilməsi məqsədilə aidiyyəti dövlət orqanlarında, eləcə də bu sahədə fəaliyyət göstərən özəl müəssisələrdə, beynəlxalq təşkilatlarda, elmi tədqiqat institutlarında, qeyri-hökümət təşkilatlarında və s. istifadə edilə bilər.



***Açar sözlər:*** *aqrar sektor, dayanıqlılıq, ərazi inkişafı, təcrübələr, səmərəlilik.*

# İXTİSARLAR

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**ARDSK** – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**KTN** – Kənd Təsərrüfatı Nazirliyi

**AKİA** – Aqrar Kredit və İnkişaf Agentliyi

**AXA** – Aqrar Xidmətlər Agentliyi

**ASK** – Aqrar Sənaye Kompleksi

**FAO** – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

**QHT** – Qeyri Hökümət Təşkilatı

**ÜDM** – Ümumi Daxili Məhsul

**AFAQ** – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları

**AMAL** – Aqrar Məşğulluğun Artırılması Layihəsi

**EKTİS** – Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ** | **5** |
| **I FƏSİL** | **ÖLKƏNİN KƏND TƏSSƏRÜFATINDA YENİDƏNQURMA VƏ İNKİŞAF LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ TƏTBİQİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI** | **8** |
| 1.1. | Sosial-iqtisadi inkişaf layihələri və proqramlarının mahiyyəti, onların əsas elementləri | **8** |
| 1.2. | Azərbaycanda iqtisadi sahələr üzrə inkişaf layihələrinin səmərəliliyinin aktuallaşması: aqrar sektorun xüsusiyyətləri | **12** |
| 1.3. | Layihələrin iqtisadi və sosial səmərəliliyinin qiymətləndirmə yanaşmaları və üsulları | **17** |
| **II FƏSİL** | **AQRAR SEKTORDA LAYİHƏLƏRİN SƏMƏRƏLİLİYİ NİN TƏMİN EDİLMƏSİ ÜSULLARI** | **21** |
| 2.1. | Ölkənin aqrar sektorunun əsas inkişaf xüsusiyyətləri və layihə yanaşmasının əhəmiyyəti | **21** |
| 2.2. | Kənd təsərrüfatı layihələrinin təsnifləşdirilməsi və səmərəlilik göstəricilərinin təyin edilməsi | **26** |
| 2.3. | Ərazi inkişafı və aqrar sahədə layihələrin xüsusiyyətləri, onların sosial-iqtisadi səmərəliliyə təsiri | **37** |
| **III FƏSİL** | **AZƏRBAYCANDA AQRAR SEKTOR ÜZRƏ İNKİŞAF LAYİHƏLƏRİNİN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİR İLMƏSİ VƏ ONLARIN SƏMƏRƏLİLİYİNİN ARTIRILMA SI YOLLARI** | **43** |
| 3.1. | Aqrar sahənin rəqabətqabiliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən layihələrin səmərəliliyinin qiymətləndirilməsi | **43** |
| 3.2. | Aqrar sahədə məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlərin sosial-iqtisadi səmərəliliyinin qiymətləndiril məsi | **52** |
| 3.3. | Aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi istiqamətində əldə edilən təcrübələr və perspektivlər | **56** |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR** | **62** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** | **67** |
| | Cədvəllərin siyahısı | **72** |
| | Şəkillərin siyahısı | **72** |

# GİRİŞ

Ölkəmiz aqrar sahə üçün münbit torpaqlara sahib olması eləcə də, müxtəlif iqlim qurşaqlarında yerləşməsi ilə dünyada aqrar potensialı yüksək hesab edilən ölkələr sırasındadır. Bu günədək sözügedən potensialdan daha səmərəli istifadə edilməsi üçün aqrar sahənin inkişafına zəmin yaradan müxtəlif layihələr həyata keçirilmiş və bu da nəticədə kənd təsərrüfatının modernizasiyasına və aqrar sahənin sürətli inkişafına nail olmağa kömək etmişdir.

Dissertasiya işində Azərbaycanın aqrar sektorunda həyata keçirilən layihələrin effektivliyinin qiymətləndirilməsi, ölkənin kənd təsərrüfatının inkişafında yenidənqurma və digər inkişaf layihələrinin tətbiqi, bu sahədə həyata keçirilən sosial-iqtisadi inkişaf layihələri, qəbul olunmuş müvafiq Dövlət Proqramlarının icrasının nəticələri barədə məlumatlar qeyd olunmuşdur. Həmçinin dayanıqlı aqrar sektorun təmin edilməsi məqsədilə həyata keçirilmiş layihələr, əldə edilmiş təcrübələr və perspektivlərdən bəhs edilir.

Məlumdur ki, hazırda ölkəmizdə aqrar sektorun inkişafı ilə bağlı qarşıya qoyulan hədəflərə çatmaq üçün çoxsaylı tədbirlər həyata keçirilməkdədir. Bu istiqamətdə 2004-cü ildən bu günədək uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarını, eyni zamanda icrası zamanı aqrar sektorda daha böyük həcmlərdə inkişafa təkan verən çoxsaylı layihələri, dövlət səviyyyəli tədbirləri misal göstərə bilərik.

Son dövrlərdə regionlarda müasir təsərrüfat subyektlərinin yaradılması ölkəmizdə aqrar sektorun inkişafında yeni yanaşmaların, innovativ metodların tətbiqinə yaxşı nümunədir. Hazırda da ölkəmizdə iri fermer təsərrüfatlarının yaradılması, aqrar sektorun inkişaf etdirilməsi, dayanıqlı kənd təsətrüfatı sisteminin qurulması prosesi uğurla davam etdirilir.

Azərbaycan, zəngin tarixi və mədəni irsi, zəngin təbii resursları və iqlim şəraiti ilə tanınan bir ölkədir. Bütün bu imkanlar ümumilikdə çoxtərəfli və məhsuldar kənd təsərrüfatı sahəsinin formalaşdırılmasında böyük rola malikdir. Həm SSRİ dövrundə,

həm də müstəqillik qazandıqdan sonra respublikamızın aqrar sektoru innovativ texnologiyaların tətbiqi və eləcə də beynəlxalq əməkdaşlıqlar sahəsində uğurla həyata keçirilən tədbirlər sayəsində durmadan inkişaf etməkdədir.

Dissertasiya işində Azərbaycanın aqrar sektorunda həyata keçirilən layihələrin, dövlət proqramlarının təhlili aparılmış və araşdırma nəticəsinə uyğun olaraq ölkədə aqrar sahədə aparılan fəaliyyətlərə, inkişaf istiqamətlərinə və problemlərin həllinə dair məlumatlar əks edilmişdir. Əsas məqsəd, Azərbaycanın aqrar sektorunda həyata keçirilən layihələrin effektivliyini təyin etmək və onların mövcud problemlərə necə cavab verdiyini qiymətləndirməkdir. Aparılan araşdırma zamanı aqrar sektorda həyata keçirilən layihələrin təhlili, onların ölkənin iqtisadı inkişafına, eləcə də xalqın rifahının yüksəldilməsinə olan müsbət təsirinin qiymətləndirilməsi, bu istiqamətdə müxtəlif vaxtlarda həyata keçirilən aqrar islahatların nə dərəcə uğurlu olub-olmaması təhlil edilmişdir. Belə ki, kənd təsərrüfatı sektorunda icra edilmiş müxtəlif (əkinçilik, heyvandarlıq, su və torpaq resurslarının idarə edilməsi, fermerlərin maarifləndirilməsi, sosial inkişafı və s. istiqamətdə həyata keçirilən) layihələrin məqsədləri, hədəfləri, onların icra müddəti ərzində effektivliyi, təsir gücü, istifadə olunan resursları, əldə edilən nəticələri qiymətləndirilərək, layihələrin strukturu, xüsusiyyətləri, məqsədləri, hədəfləri və təsir mexanizmi tədqiq edilmişdir.

Tədqiqat zamanı indiyədək ölkəmizdə qəbul edilmiş dövlət proqramları, Azərbaycan Respublikasında Kənd Təsərrüfatının İnkişafına dair Strateji yol xəritəsi, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, Prezidentimizin aqrar sektorun inkişafı ilə bağlı sərəncam və fərmanları, Azərbaycan Respublikasının Nazirlər Kabinetininin, Kənd Təsərrüfatı Naziliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, ARDSK-nın illik hesabatları və bülletenləri, müvafiq dövlət qurumlarının analitik materialları, dövri çap edilən jurnallar, məqalələr və digər internet resuslarından istifadə edilmişdir.

Eyni zamanda dissertasiya işində aqrar sahənin rəqabətqabiliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən layihələr, dövlət dəstəyi mexanizmləri, dövlət-özəl tərəfdaşlığı, eləcə də fermerlərin özünüməşğulluq imkanlarının artırılması, bu istiqamətdə həyata keçirilən tədbirlərin sosial-iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, ölkəmizdə aqrar sektorun dayanıqlı inkişafına nail olunması istiqamətində əldə olunan təcrübə və perspektivlər təqdiq edilmişdir.

Dissertasiya işinin elmi yeniliyinə aşağıdakıları aid edə bilərik:

- Metodoloji innovasiyalar: Tədqiqat işi aqrar layihələrin effektivliyini qiymətləndirmək üçün yeni metodologiyalar təqdim edir. Bura layihələrin müqayisəli təhlilinə və onların nəticələrinin qiymətləndirilməsinə daha sistemli yanaşılması aiddir;
- Layihələrin səmərəliliyinin təhlili: Dissertasiya işi aqrar sektorda həyata keçirilən layihələrin effektivliyinin detallı təhlil olunmasını təmin edir və bu layihələrin hədəflərinə hansı dərəcədə çatdığını və mövcud problemləri müəyyənləşdirir;
- Statistik məlumatların təhlili: Aqrar sahədəki ən son statistik məlumatların təhlil edilməsi, regional səviyyədə iqtidasiyyatın əsas prioritetlərindən biri kimi kənd təsərrüfatı sektorunun cari vəziyyətinin təhlil edilməsi və sözügedən sahənin inkişaf etdirilməsi ilə əlaqədar müvafiq tətbirlərin görülməsi,
- İnnovativ üstünlük: Aqrar sektorun dayanıqlı və davamlı inkişafı istiqamətində inkişaf etmiş ölkələrin sahə üzrə təcrübəsinin təhlili.

Tədqiqat işinin strukturunu giriş, üç fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısı, şəkillərin və cədvəllərin siyahısı təşkil edir. Dissertasiya işində 4 cədvəl, 5 şəkildən (histoqramdan) istifadə olunmuşdur, iş nəticə və təkliflərlə tamamlanır. Nəticə və təklif hissəsində fəsillər üzrə əldə olunan məlumatlar ümumiləşdirilmiş, mövcud problemlər əks edilmiş və sahənin inkişafı həmçinin mövcud problemlərin həlli ilə bağlı təkliflər qeyd edilmişdir.

# FƏSİL I. ÖLKƏNİN KƏND TƏSSƏRÜFATINDA YENİDƏNQURMA VƏ İNKİŞAF LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ TƏTBİQİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Sosial-iqtisadi inkişaf layihələri və proqramlarının mahiyyəti, onların əsas elementləri

Azərbaycan Respublikası Prezidenti tərəfindən həyata keçirilən iqtisadi inkişaf strategiyaları ölkəmizin regionlarının davamlı və dayanıqlı inkişafının təmin edilməsi, eyni zamanda rayonlarda davamlı inkişaf tendensiyalarına istinad edən rəqabətqabiliyyətli kənd təsərrüfatı qurmaq məqsədi daşıyır. Bu siyasətin həyata keçirilməsində, müxtəlif illərdə (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üzrə) regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul edilən dövlət proqramları xüsusi rola malikdir. 2004-cü ildən etibarən uğurla icra edilən sözügedən dövlət proqramları şəhər, qəsəbə və kənd yerlərindəki əhalinin sosial rifahını müsbət yöndə köklü şəkildə dəyişmiş, regionların digər sahələrlə yanaşı aqrar sektor üzrə potensialının artmasına geniş imkanlar açmışdır.

Qeyd olunan Dövlət Proqramları çərçivəsində respublikamızda ərazi inkişafı ilə bağlı tənzimlənmə sistemlərinin (həmçinin qanunvericilik bazasının) daha da təkmilləşdirilməsi, yerlərdəki əhalinin təsərrüfat dövriyyəsinə cəlb olunması və buna uyğun olaraq ölkə iqtisadiyyatını şaxələndirilməsinin genişləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi hesabına kənd təsərrüfatının rəqabətqabiliyyətliliyinin artırılmasına, sağlam və daima inkişaf edən sahibkarlıq sisteminin qurulmasına, bazarda sağlam rəqabətin təmin edilməsinə, əhalinin bazara çıxış imkanlarının asanlaşdırılmasına, istehsal edilən məhsulların keyfiyyətinin yaxşılaşdırılmasına, təbii ehtiyatlardan səmərəli istifadə olunmasına və digər istiqamətlərdə kompleks tədbirlərin görülməsinə nail olunmuşdur.

Sözügedən proqramların əsas mahiyyətini təbii resursların qorunaraq onlardan səmərəli istifadə edilməsi, yaşıl kənd təsərrüfatının dayanıqlı inkişaf etdirilməsi,

ölkəmizdə neft sektoru ilə yanaşı qeyri-neft sektorunun da sürətli şəkildə inkişafının təmin edilməsi, bu sahə üzrə ixrac potensialının daha çox artırılması, ölkə ərazisindəki bütün əhalinin (xüsusilə kənd yerlərində yaşayanların) sosial rifahının yaxşılaşdırılaraq onlar üçün layiqli yaşayış səviyyəsi imkanlarının yaradılması, yerli əhalinin yerli bazarlarda gəlir əldə etmək imkanlarının artırılması və son nəticədə ölkə regionlarının davamlı və dayanıqlı intensiv inkişafının təmin edilməsi təşkil etmişdir.

Ənənəvi kənd təsərrüfatı bölmələrinin, eyni zamanda priotitet bitkilərin becərilməsinin inkişafı istiqamətində imzalanmış sərəncamlar, təsdiq olunmuş müxtəlif dövlət proqramları, eyni zamanda kənd təsərrüfatı ilə məşğul olan şəxslərə subsidiyaların ödənilməsi ilə bağlı qəbul olunmuş qərarlar aqrar sektorda istehsal və ixrac imkanlarının artırılmasında və kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır. Son dövrlərdə aqrar sahə üzrə reallaşdırılan layihələr, proqramlar, davamlı tədbirlərin icra olunması sayəsində respublikamızda kənd təsərrüfatı inkişaf etmiş və əhalinin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi yüksəlmişdir. Eyni zamanda ərzaq məhsullarının istehsalında da artım müşahidə edilmiş, ixrac potensialı gücləndirilmişdir.

Dövlət Proqramları çərçivəsində aqrar sahənin inkişafı ilə əlaqədar xeyli sayda prioritet hesab edilən ardıcıl tədbirlər həyata keçirilmişdir. Bundan başqa, aqrar sahənin vergilərdən azad edilməsi, fermerlərə dəstək olaraq subsidiyaların, güzəştli kreditlərin verilməsi, eyni zamanda digər dövlət dəstəyi mexanizmlərinin tətbiq edilməsi, sözügedən istiqamətdə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyası hesabına su anbarlarının və yeni su kollektorunun tikintisi, bunlardan başqa digər iri layihələrin həyata keçirilməsi, Aqrolizinq ASC-nin yaradılması, əlavə olaraq 2015-ci ilin Kənd təsərrüfatı ili elan edilməsi kimi tədbirlər və s. aqrar sahənin inkişafına göstərilən diqqətin göstəricisidir və bu sahənin inkişafına təminat vermişdir.

Yuxarıda sadalanan tədbirlərlə əlaqədar olaraq ölkəmizdə bitkiçilik və

heyvandarlıq sahələri sürətlə inkişaf etdirilmiş, qida məhsulları ilə özünütəminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Qeyd edilənlərlə yanaşı qısa dövr ərzində iri fermer təsərrüfatları, çoxsaylı innovativ texnologiyaları özündə cəmləşdirən aqroparklar, intensiv əkinçilik təsərrüfatları, müasir tipli istixanalar, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən digər infrastrukturların maddi-texniki bazasının güclədirilməsinə də nail olunmuşdur.

Aqrar sektorun əsas xüsusiyyətlərindən biri onun davamlılığının təmin edilməsidir. Kənd təsərrüfatı sahəsinin dayanıqlı inkişafını təmin etmək üçün ilkin olaraq kənd yerlərində əhalinin, bütövlükdə kəndin ərazi inkişafını təmin etmək lazımdır. Ərazi inkişafı kənd yerlərində əhalinin həyat səviyyəsinin daim yüksəldilməsindən birbaşa asılıdır.

Aqrar sahədə dayanıqlılıq istehsalın intensivləşdirilməsinin iqtisadi səmərəliliyi, əmək məhsuldarlığı və torpaqlardan səmərəli istifadə, qabaqcıl aqrotexnologiyaların tətbiqi ilə sıx əlaqəlidir. Aqrar sahənin rəqabətə davamlı inkişafı istehsal potensialından səmərəli istifadə edilməsindən asılıdır və kənd təsərrüfatının dayanıqlı inkişafına xidmət edir (Hüseynov M.C., 2006; Hüseynov M.J., 2004).

Aqrar sahədə həyata keçirilən layihələr ölkəmizdə ərazi inkişafını təmin etmək, kənd təsərrüfatını modernizasiya etmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, ölkə iqtisadiyyatını inkişaf etdirmək məqsədi daşıyır. Bu layihələrin sosial-iqtisadi səmərəliliyə təsirini aşağıdakılarda görə bilərik:

- Aqrar sahədə həyata keçirilən layihələrin nəticəsində sahə üzrə geniş infrastruktur imkanlarına nail olunmuşdur. İnfrastrukturun inkişafı fermerlərə daha bol məhsul yetişdirmək, onları daxili, eləcə də xarici bazarlara çıxarmaq, istehsal proseslərini asanlaşdırmaq imkanı verir.
- İnnovativ texnologiyaların tətbiqinə yönəldilmiş layihələrin icrası nəticəsində aqrar sahəyə modern texnologiyanın, avtomatlaşdırılmış sistemlərin, müasir suvarma sistemlərinin tətbiqi sayəsində işlər daha effektiv hala gəlmiş və əl əməyindən

istifadə payı azaldılaraq, məhsul istehsal həcminin artırılmasına nail olunmuşdur ki, bu da fermerlərin gəlir səviyyəsinin artmasına və yaşayış standartlarının yüksəlməsinə gətirib çıxarmışdır.

- Aqrar sahədəki layihələr, məhsulun diversifikasiyasını və keyfiyyətinin artırılmasını təmin edir. Bu da kəndlilərin məhsul portfelini genişləndirərək, onların fərqli bazarlarda daha konkurent qalmağa və məhsul dövriyyəsini artırmağa kömək edir.
- Təşviqat və təlim proqramları istiqamətində həyata keçirilən layihələr aqrar sektorda müxtəlif istiqamətlər üzrə fermerlərim bilik və bacarıqlarının artırılmasını təmin edir. Nəticədə bilikli və təcrübələri fermerlər hazırlanır ki, bu da öz növbəsində aqrar sahə üzrə məhsuldarlığın çoxalmasına, idxaldan asılılığın azaldılaraq ixrac potensialının artmasına səbəb olmuşdur.
- Aqrar sahədə həyata keçirilən layihələrin nəticəsi olaraq yeni iş yerləri yaradılması əhalinin məşğulluğunun artırılmasına, onların social rifahının yaxşılaşmasına, regionların sürətli inkişafına gətirib çıxarmışdır, bu təsirlər hər ilin yekunlarına dair aidiyyəti qurumların hesabatlarında da aydın şəkildə görünür.

Aqrar sahədə həyata keçirilən sosial-iqtisadi inkişaf layihələri və proqramlarının əsas məqsədi fermerlərin və kənd əhalisinin həyat şəraitini yaxşılaşdırmaq, onların mənfi iqtisadi və sosial problemlərini həll etmək və aqrar sahədə sürətli və davamlı inkişafa nail olmaqdır.

Bu layihələr və proqramlar bir sıra fəaliyyət sahələrini əhatə edir:

- Kənd əhalisinin inkişafı: Bu proqramlar fermerlərin təhsil, sağlamlıq, həyat şəraitinin yüskəldilməsinə müvafiq köməklik edir. Məsələn, təhsil proqramları və təlimlər fermerlərin təhsil səviyyəsini, onların sahə üzrə bilik və bacarıqlarını artırmaq üçün təşkil olunur.
- Kənd təsərrüfatı sahəsinin və məhsullarının inkişafı: Bu proqramlar aqrar sahədə əkinçiliyi və məhsuldarlığı artırmağa yönəldilmişdir. Bu, məsələn, məhsul yetişdirilməsini dəstəkləmə proqramları, mədəni bitkilərin və heyvanların

yetişdirilməsi üçün texnologiyaların və maliyyə imkanlarının təmin edilməsi və ya su təchizatı və irriqasiya infrastrukturunun inkişafı kimi tədbirləri əhatə edir.

- Yenidənqurma və infrastrukturun inkişafı: Bu proqramlar fermerlərin şəhər mərkəzlərinə köçmələrinin qarışısını almaq və onlar üçün yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə kənd ərazilərində infrastrukturu inkişaf etdirməyə və genişləndirməyə yönəldilmişdir. Buraya, yol, su, elektrik kimi infrastruktur xətlərinin çəkilməsi və digər sosial müəssisə imkanlarının gücləndirilməsi daxildir.
- Fermerlərin işlə təminatı və sosial müdafiəsi: Bu proqramlar fermerlərin işlə təmin olunmaq və ya öz işlərini qurmaq imkanlarını artırmağa yönəlmişdir. Buraya, kredit proqramları, iş təlimləri və iş qurma layihələri ilə bağlı tədbirlər daxildir.

Bu proqramlar və layihələr ümumilikdə dövlət, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir. Əsas məqsəd, kənd əhalisinin sosial-iqtisadi inkişafını təmin etmək və onların həyat səviyyəsini artırmaqdır.

## 1.2. Azərbaycanda iqtisadi sahələr üzrə inkişaf layihələrinin səmərəliliyinin aktuallaşması: aqrar sektorun xüsusiyyətləri

Müstəqilliyimizi bərpa etdikdən sonrakı dövrlərdə aqrar sektorun inkişaf etdirilməsi məqsədilə bu sahəyə daima dövlət dəstəyi həyata keçirilmiş, ixrac imkanları genişləndirilmiş, idxaldan asılılığın azaldılması istiqamətində işlərə başlanılmış və sözügedən sahəyə investisiya qoyuluşu artırılmışdır.

Məlumdur ki, Azərbaycan iqtisadi sahələr üzrə inkişaf layihələrinin həyata keçirilməsi və onların səmərəliliyinin aktuallaşdırılması istiqamətində son dövrlərdə ciddi addımlar atmış bir ölkədir. Ölkənin iqtisadiyyatının inkişafında aqrar sektorun yeri əhəmiyyətli dərəcədə böyükdür və qeyd edilən istiqamətdə xeyli sayda layihələr həyata keçirilməkdədir. Aqrar sektorda inkişafın sürətli olması ölkənin gələcəkdəki inkişaf perspektivləri üçün də olduqca önəmli hesab edilir. Ölkəmizin iqtisadiyyatında vacib yerlərdən birini tutan aqrar sektorda əlverişli inkişaf

dinamikasının yaranması ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bərabər, kənd yerlərindəki əhalinin məşğulluğu ilə bağlı problemlərin həlli eləcə də, onların rifahının yaxşılaşdırılması, eyni zamanda məhsul ixracının diversifikasiyası baxımından olduqca önəmli rola malikdir (Salahov S.V. və başqaları, 2002).

Azərbaycan dövləti tərəfindən həyata keçirilən bir sıra layihələr, ölkənin aqrar sektorunun inkişafını təmin etmək, onun effektivliyi artırmaq və kənd yerlərində əhalinin sosial-ekonomik statusunu yaxşılaşdırmağı hədəfləyir.

Kənd təsərrüfatı ölkəmizdə aqrar saneye komplekslərinin (ASK) əsas sahələrindən hesab edilir. Aqrar sektorun əsas xüsusiyyətlərini ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, bütün regionlarda sosial və iqtisadi inkişafa nail olunması, əkinçilik və heyvandarlıq məhsulları istehsalının innovativ texnologiyalar əsasında təşkil edilməsi, aqrar sahə üzrə məhsulların istehsalı və emalı üçün zəruri hesab edilən infrastrukturun yaradılması təşkil edir (Quliyev E.A., 2015).

Hazırkı dövrdə kənd təsərrüfatı sahəsinin sürətli inkişafına nail ola bilmək üçün ölkəmizdə ASK-ların yaradılmasına xüsusi diqqət edilir. ASK ölkədəki ənənəvi kənd təsərrüfatını, məhsul istehsalını, onların emalınə və ixracını dəstəkləyən mühüm bölmələrdən biri hesab edilir. Bu kompleks kənd təsərrüfatı, emalatxana və satış kimi bir çox sahələri əhatə edir. Müxtəlif bölgələrdə sahə üzrə qeyd edilən komplekslər aqrar sahənin inkişafına əvəzsiz töhvələr verməkdə davam edir. Qeyd etmək lazımdır ki, ilk dəfə olaraq Cənubi Qafqazda ilk böyük ASK məhz elə bizim ölkədə (Şəmkir rayonunda) fəaliyyətə başlamışdır.

Aqrar sahənin inkişaf etdirilməsi ölkə iqtisadiyyatında bir çox problemlərin həll edilməsində əhəmiyyətli rol oynaya bilər. Belə ki, keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarına nail olunmasına; ölkə əhalisinin təqribən 39%-nin yaşadığı kənd yerlərində sosial və iqtisadi inkişafa təkan verməsinə; əhalinin maddi rifah halının yüksəldilməsinə; işsizlik problemlərinin yumşaldılması və məşğulluğun artırılmasına; kənd əhalisinin şəhərlərə və digər ölkələrə axınının qarşısının alınmasına; sənayenin inkişafı üçün xammal bazasının

möhkəmləndirilməsinə; ixrac potensialının artırılmasına təsir göstərə bilər. Aqrar sahənin inkişafı öz təminatının artırılmasına kömək edir. Daxili tələbatın böyük bir hissəsi ölkədə yerli məhsulların istifadə edilməsi ilə qarşılanır, bu da xarici məhsulların alınmasını azaldır və məzmunlu ticarət dövriyyəsinə yol açır. (Alıyev İ.H., 2007).

Aqrar sahənin inkişafı ilə bağlı əldə edilən nailiyyətlərdən biri innovativ texnologiyaların tətbiqi və məhsulların keyfiyyətinin artırılması üçün investisiyaların yatırımında artımların əldə edilməsidir. Belə ki, bu sahəyə süni zəkanın, informasiya texnologiyalarının tətbiq edilməsi, sektorun daha sürətli inkişafı və məhsulların keyfiyyətinin yaxşılaşdırılması üçün olduqca əhəmiyyətli hesab edilir. Məlumdur ki, süni zəkaya əsaslanan peyk müşahidə sistemləri bitkinin cari vəziyyətini ölçərək onlarında vaxtında gübrələrlə, dərman maddələri ilə, zərərvericilərə qarşı kimyəvi maddələrlə mübarizə aparılmasını özü idarəedən ağıllı texnikaların tətbiq edilməsi kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılmasına çox böyük rol oynayacaqdır. Bu günədək Azərbaycan Hökuməti sözügedən sahənin daha çox sürətli inkişafına çatmaq üçün müxtəlif inkişaf planları tərtib və tətbiq etmişdir. Hansı ki həmin planlar, ölkənin aqrar sektorunun effektiv idarə olunmasına, su ehtiyatlarının və sahənin diversifikasiyasının təmin edilməsinə yönəlmişdir (Hüseynova İ.M., 2020).

Ötən dövrlərlə müqayisədə aqrar sahə üzrə gözlə görülən inkişaflar və nailiyyətlər, bu sahədə sürətli və müstəqil bir inkişaf perspektivinin olduğunu vurğulayır. Belə ki, bildiyimiz kimi aqrar sektor ölkə iqtisadiyyatının çox mühüm bir sferası kimi formalaşmışdır. Əlavə olaraq qeyd edə bilərik ki, əldə edilən statistik nəticələrə əsasən ölkə əhalisinin istehlak tələbinin ən azı üçdə ikisi birbaşa aqrar sektorun hesabına təmin edilir. Elə buna görə də istənilən ölkənin iqtisadi baxımdan təhlükəsizliyinin təmin edilməsi birbaşa həmin ölkənin kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsindən başlayır. Belə ki, dünya üzrə əhalinin sayının sürətlə çoxaldığı, qlobal iqlim dəyişikliyinin təsirlərinin gözlə görülə bilən səviyyədə çoxaldığı hazırkı dövrdə ölkələrin kənd təsərrüfatının uğurlu inkişafına olan ehtiyacı

güclü şəkildə hiss olunur. Son dövrlərdə aqrar sektorun inkişafı istiqamətində həyata keçirilən layihələr və onların nəticələrini təhlil etdikdə ölkəmizin də effektiv aqrar sektora nail olduğunu görə bilirik. Effektiv aqrar sektor deyəndə az resurslar sərf olunmaqla yüksək və bol keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının təmin edilməsi nəzərdə tutulur.

Aqrar sektor ölkəmizin sosial və iqtisadi problemlərinin aradan qaldırılmasında, eləcə də yerlərdəki əhalinin məşğulluq problemlərinin həll edilməsində əvəzsiz əhəmiyyət kəsb edir. Düzgün idarə olunan bir aqrar sektor, bir ölkə üçün sürətli inkişafın və sosial-iqtisadi problemlərin aradan qaldırılmasının əsasında durur. İşlədiyi ərazilərdə məşğulluğun artırılmasında, gəlirliliyin çoxaldılmasında və sosial rifahın yüksəldilməsinin təmin edilməsində əhəmiyyətli bir rol oynayır. Əkin sahələrinin sayının artırılması, texnika və texnologiyaların istifadəsinin təkmilləşdirilməsi və məhsul emalatının dəstəklənməsi kimi addımlar, kənd sahələrində daha çox iş imkanları yaradır və onların gəlirini artırır. Bu da kənd əhalisinin sosial rifahını artırır və onları məşğulluqla təmin edərək və maddi baxımdan rifaha çatdırır.

Bundan başqa aqrar sektorun inkişafı, kənd ərazilərində yaşayan insanların yaşayış şəraitlərinin təkmilləşdirilməsinə də kömək edir. İnkişaf etmiş infrastruktur, sağlamlıq xidmətləri, təhsil imkanları və digər infrastruktur təminatları, kəndlilərin həyat keyfiyyətini artıraraq onların sosial problemlərini azaldır. Bu səbəblərə görə, aqrar sektor ölkələrin sosial və iqtisadi inkişafında əhəmiyyətli bir rola sahibdir və yerli əhalinin məşğulluq problemlərini həll etməkdə və sosial rifahlarını artırmaqda əhəmiyyətli bir vasitə hesab edilir.

Çağdaş dövrdə ölkəmizin aqrar sektorunda əmək tutumlu sahələrin inkişaf etdirilməsinin nəticəsidir ki, çox qısa dövr ərzində bu sektorda daha çox insana iş tapmaq imkanı verilmişdir. Fermerlərə dövlət dəstəyinin verilərək onların güzəştli kreditlərlə təmin edilmsəi siyasəti də kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin inkişafı üçün vacib addım kimi qiymətləndirilir. Məhsul istehsalçılarına

dövlət dəstəyinin nəticəsi kimi tətbiq edilən güzəştlər onların əlavə xərclərinin azaldılması, eləcə də yerli məhsulların qiymətlərinin yerli istehlakçılar üçün münasib olması baxımından olduqca mühümdür. Hal-hazırda da ölkənin kənd təsərrüfatının inkişafının təmin edilməsi istiqamətində dövlət tərəfindən göstərilən dəstəyin artırılması və tətbiqi mexanizmlərinin daha da təkmilləşdirilməsi istiqamətində yeni islahatların həyata keçirilməsinə başlanılmışdır.

ARDSK-nın məlumatlarına əsasən 2022-ci ildə kənd təsərrüfatında ümumi məhsulun dəyəri faktiki qiymətlərlə 10984.2 milyon manat təşkil etmişdir. Bunun 5446.2 milyon manatı heyvandarlıq, 5538 milyon manatı bitkiçilik məhsullarının payına düşür. Əvvəlki illə müqayisə etdikdə kənd təsərrüfatı məhsulları istehsalı 7,2%, həmçinin bitkiçilik məhsulları üzrə 11,7%, heyvandarlıq məhsulları istehsalı 3,5% artmışdır. Nəticədə, kənd təsərrüfatı məhsulları istehsalında bitkiçilik məhsullarının payında 45,4%-dən 47,9%-ə qədər artım müşahidə olunmuşdur, heyvandarlıqda isə əksinə 54,6%-dən 52.1%-ə qədər azalma var. Nəticədə, bu sektorun ölkənin ÜDM-dəki payı 2018-ci ildəki 5.3%-dən 2019-cu ildə 5.7%-ə yüksəlmişdir (https://www.stat.gov.az/source/agriculture/).

Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında, eləcə də qeyri-neft sektorunun inkişaf etdirilməsində, əhalinin məşğulluq səviyyəsinin artırılmasında və bu istiqamətdə qeydə alınan problemlərin həll edilməsində aqrar sahələnin inkişaf etdirilməsi müstəsna əhəmiyyətə malikdir.

Bitkiçilik sahəsi istiqamətində respublikamız həm dəmyə, həm də suvarma şəraitində inkişaf etdirilir. Kənd təsərrüfatının digər əhəmiyyətli sahələrindən biri də heyvandarlıqdır. Heyvandarlıq əsasən taxılçılıq sahəsi üzrə tanınan rayonlarda daha çox inkişaf etmişdir. Hazırda heyvandarlıq məhsullarına olan tələbatın tam ödənilməsi məqsədilə yerli istehsalın artırılması istiqamətində tədbirlər həyata keçirilməkdədir.

Aqrar sektorda qabaqcıl məqsədlərdən biri istehsal edilən məhsulun bolluğu ilə bərabar yüksək keyfiyyətli olmasının təmin edilməsidir. Bu kənd təsərrüfatı

məhsullarının standartlara uyğun olaraq yetişdirilməsi və ölkənin daxili bazarı, eləcə də xarici bazarlara çıxan məhsulların konkurentliyinin artırılmasını təmin edir. Qeyd edilən xüsusiyyətlər, Azərbaycanın aqrar sektorunun dinamik və səmərəli inkişafını, eləcə də onun ölkə iqtisadiyyatında əhəmiyyətli bir rol oynamasını təmin edir.

Ölkəmiz coğrafi baxımdan əlverişli yerdə yerləşməsi səbəbilə təbii resurslara əlçatanlığı baxımından olduqca zəngindir. Bu səbəbdən ildə 2 dəfə məhsul götürülmə potensialına malikdir. Eyni zamanda, geniş və zəngin otlaq sahələri heyvandarlıq sahəsinin inkişafı baxımından bütün mövsüm ərzində faydalıdır. Əkinçilik və heyvandarlığın bütün növləri ilə aktiv şəkildə məşğul olmaq potensialı ölkəmizin kənd təsərrüfatının ən başlıca və mühüm xüsusiyyətlərindən biri hesab edilir.

## 1.3. Layihələrin iqtisadi və sosial səmərəliliyinin qiymətləndirmə yanaşmaları və üsulları

Layihələrin iqtisadi və sosial səmərəliliyinin qiymətləndirilməsində müxtəlif yanaşma və üsullar mövcuddur. İqtisadi səmərəliliyi qiymətləndirən zaman öncə layihənin gəlirlilik dərəcəsini müəyyənləşdirmək lazımdır. Bu məqsədlə Discounted Cash Flows (DCF) metodu ən çox istifadə edilən metodlardandır. Bu metodun əsas mahiyyəti ondan ibarətdir ki, gələcəkdə yaranacaq pul axınlarının hazırki dəyərlərinin cəmi ilkin investisiya məbləğindən çox olarsa bu halda layihəyə yatırılan investisiya gəlirli sayılır.

Layihələrin iqtisadi və sosial səmərəliliyinin qiymətləndirilməsi, bu və ya digər layihəyə nəzarət olunması, təkmilləşdirilməsi proseslərində mühüm bir hissədir. Bu qiymətləndirmələr, layihənin effektivliyini, məqsədlərinə çatma dərəcəsini, mənfi və müsbət təsirlərini və layihənin sosial və iqtisadi mühitə olan təsirini ölçmək üçün istifadə edilir. İqtisadi və sosial səmərəlilik, layihənin səmərəli və dayanıqlı bir şəkildə fəaliyyət göstərməsi, cəmiyyətə dəstək olması və ya ictimaiyyət arasında dəyər yaratması ilə əlaqələndirilir. İqtisadi və sosial

səmərəliliyin qiymətləndirilməsi eyni zamanda, bir layihənin sosial və əməkdaşlıq mühitini nəzərə alaraq inkişaf etdirilməsi və ya mövcud olan problemləri həll etməsi üzrə təşkil edilən tədbirlərin effektivliyinin ölçülməsinə imkan verir. Aşağıda, bu məsələni başa düşmək üçün bəzi əsas yanaşmalar və üsullar təqdim edilmişdir:

Key Performance Indicators - KPIs: İcmal göstəriciləridir. Bunlar layihənin iqtisadi və sosial səmərəliliyini ölçmək üçün spesifik göstəricilər və metrikalardır. Bu göstəricilər layihənin iqtisadi qazancı, məhsulun sosial təsiri, əməkdaşlıq mühiti, cəmiyyətdə yaradılan dəyər və s. kimi mənbələrdən cəmlənir. Məsələn, yeni iş yeri yaradılması, əhalinin rifahının yüksəldilməsi, fermerlərin bilik və bacarıqlarının arıtırılması, layihənin cəmiyyətə təsiri və s. kimi müxtəlif sahələri əhatə edə bilər.

Stakeholderlərlə əlaqələr: Layihədə maraqlı olan tərəflərlə - stakeholderlərlə - düzgün əlaqə qurmaq və onların perspektivlərini və mənfi/müsbət təsirlərini dəyərləndirmək vacibdir. Müştəri feedbacki də həmçinin, layihənin təsirliliyini və effektivliyini qiymətləndirmək üçün dəyərli bir mənbə kimi xidmət edir.

Sosial mühit analizi: Layihənin ictimai mühitini və sosial dəyərlərini anlamaq, layihənin sosial səmərəlilik səviyyəsini qiymətləndirmək üçün vacibdir. Bu analiz, layihənin insan hüquqlarını, ədaləti, cəmiyyətə dəstəyin və həssas qrupların təminatının nəzərə alınmasını təyin edir.

Gəlir və xərclərin müqayisəsi: Xərc-gəlir üsulunun tətbiqi layihənin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün vacibdir. Bu, layihənin bazar payını artırmaq üçün maliyyə resurslarının effektiv istifadəsinə şərait yaradır, eləcə də maliyyə tənzimləmələri, büdcə, gəlir və xərclərin qiymətləndirilməsini, onların düzgün idarə edilməsi, layihənin özünün səmərəliliyini ölçmək üçün əhəmiyyətli bir üsuldur.

Dəyişikliklərin izlənilməsi və qiymətləndirilməsi: Layihənin həyat dövründə dəyişiklikləri izləmək və qiymətləndirmək, layihənin sosial və iqtisadi səmərəliliyinin inkişafını dəyərləndirmək üçün önəmlidir. Bu, zamanla layihənin performansını izləməyə və layihəyə dəyişikliklər etməyə imkan verir.

Layihələrin iqtisadi səmərəliliyi layihə üçün çəkilən məsrəf və əldə edilən mənfəət nisbətini əks etdirən göstərilərə uyğun olaraq təyin edilir. Layihələrin iqtisadi və sosial səmərəlilik dərəcəsini qiymətləndirməsi ilk növbədə onun bütün mərhələlərinin və əldə olunan nəticələrin təhlilini tələb edir. Ümumiyyətlə layihələrin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün layihələr öncə texniki-iqtisadi təhlil tələb edən qiymətləndirilmə mərhələsindən keçməlidir. Texniki-iqtisadi təhlil aparmaqda məqsəd layihənin nəzərdə tutulan prioritetlərə uyğun olub olmadığını müəyyən etməkdir. Təklif edilən layihənin xərcləri və onun cəmiyyətə faydalarının iqtisadi səmərəliliyinin qiymətləndirilməsi , təklif edilən layihədə eyni məqsədə nail olmanın müxtəlif yolları ilə, bütövlükdə cəmiyyətin yatırım müddəti ərzində bütün faydaları, yəni gəlir və xərcləri nəzərə almaqla müqayisə aparmaqla həyata keçirilir. Layihənin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün xeyli sayda analitik metodlar olsa da, ən çox istifadə edilən üsullardan biri bütün müsbət (əldə edilən mənfəət) və mənfi (xərclər) pul axınlarının təyin edilməsini özündə birləşdirən xərc-gəlir üsuludur. Əldə edilən gəlirləri pul vəsaiti kimi göstərmək mümkün olmadığı halda, digər yol olaraq maya dəyəri vasitəsilə təhlil aparıla bilər. İqtisadi cəhətdən uğurlu təhlillərin edilməsi seçilmiş layihənin icra müddətinin sonunda nəzərdə tutulan mənfəəti əldə etmək məqsədilə bütün həyata keçirilməsi real olan alternativlər arasında ən effektiv başqa sözlə ən az xərcli variantı etdiyini və faydasının ölçülə biləcəyə hallarda müsbət iqtisadi fayda qazanacağını göstərməlidir.

Tamamlanmış layihələrin qiymətləndirilməsi: Layihələrin həyata keçirilməsi zamanı ən əsas məqam tamamlanmış, yəni icrası başa çatmış layihələrin səmərəlilik dərəcəsinin əsas və sonrakı qiymətləndirilməsinin həyata keçirilməsidir. Əsas tamamlanma qiymətləndirilməsi üsulu həyata keçirilən bütün layihələrə sistemli olaraq tətbiq olunmalıdır. Layihənin sosial səmərəliliyinin qiymətləndirilməsi zamanı layihədən əldə edilən nəticələrin insanların rifahına təsir miqyasının təhlil edilməsi nəzərdə tutulur. Göstərilən təsirin ölçülməsi aşağıdakı qeyd edilən məqsədlər üçün istifadə edilir:

- Layihənin nəticələrini və təsirlərini qiymətləndirmək və onları digər kənar xarici amillərin təsirindən fərqləndirmək. Belə ki, layihədən əldə edilən nəticələrin onun məqsədinə hansı şəkildə uyğun olub-olmadığını təyin etməyə əsaslanır. Əgər layihənin nəticələri məqsədlərinə uyğun gəlirsə bu onun uğurlu olduğu deməkdir. Layihə təsirlərini digər xarici amillərin təsirindən ayırmaq üçün öncə müvafiq məlumatları toplayıb izləmək, statistik təhlillər və monitorinqlər həyata keçirmək lazımdır.
- Layihənin icrası zamanı xərclərin əsaslı olmasını (və ya olmamasını aydınlaşdırmaq).
- Layihələrin və dövlət proqramların genişləndirilməsi, inkişaf etdirilməsi, dəyişdirilməsi eyni zamanda tamamilə ləğvi barədə qərarların qəbul edilməsi gələcək fəaliyyətləri müəyyənləşdirmək və onların idarə olunası prosesini inkişaf etdirmə bilmək üçün nəticələr çıxararaq təkliflər vermək.
- Nəticələr üçün hesabatlığı gücləndirmək.

Bu yanaşmaların və üsulların kombinasiyası, bir layihənin iqtisadi və sosial səmərəliliyini müəyyənləşdirmək üçün ən effektiv metodları təmin edir. Bu, layihənin həm maddi, həm də sosial səmərəliliyini ölçməyə kömək edir və buna əsasən strateji dəyişikliklər və təkmilləşdirmələr təklif edir. Müvafiq göstəricilər və analitik məlumatlarla birlikdə istifadə olunduğu təqdirdə, layihənin effektivliyini və ictimai dəyərini qiymətləndirmək mümkündür.

# FƏSİL II. AQRAR SEKTORDA LAYİHƏLƏRİN SƏMƏRƏLİLİYİNİN TƏMİN EDİLMƏSİ ÜSULLARININ TƏHLİLİ

## 2.1. Ölkənin aqrar sektorunun əsas inkişaf xüsusiyyətləri və layihə yanaşmasının əhəmiyyəti

Azərbaycanda kənd təsərrüfatı ölkə iqtisadiyyatının əsas sahələrindən biridir. Bu sahənin mühümliyi və prioritetliyi onunla bağlıdır ki, ölkə əhalisinin yarıdan çoxsu kənd yerlərində yaşayırlar. Əhalinin məşğulluğu, gəlirlərinin daimi və dayanıqlı, sosial rifahının yüksək olması baxımından kənd təsərrüfatının inkişafı ölkəmiz üçün əsas prioritet və vacib istiqamətlərdəndir. Qeyd etmək lazımdır ki, sözügedən sahənin inkişafı üçün kifayət qədər resursa sahibik. Belə ki, regionlarımızda kifayət qədər əkinəyararlı torpaq sahələrinin, otlaqlar və biçənəklərin olması həm əkinçiliklə, həm də heyvandarlıqla geniş spektrda məşğul olmağa imkan verir.

Aqrar sektorun əsas inkişaf xüsusiyyətlərini ölkə əhalisinin ərzağa olan tələbatının ödənilməsi təşkil edir. Aqrar sektorun sabit və intensiv inkişafı, əkin üçün yararlı və suvarılan torpaqların adekvatlığından birbaşa asılı məsələdir. Ölkəmizdəki əkinəyararlı torpaq sahələrinin sistemli və kompleks şəkildə dəyərləndirilməsi və bununla bağlı tədbirlərin görülməsi dövlətimizin kənd təsərrüfatı və aqrar sektor üzrə siyasətinin təməlini təşkil edir. Yüksək keyfiyyətə və bol məhsuldarlığa malik olan məhsulları yetişdirə bilmək üçün münbit və yararlı torpaqların da olması olduqca vacib məsələlərdən hesab olunur. Məlumdur ki, Azərbaycanda torpaq növlərinin əksəriyyəti mövcuddur. Əlavə olaraq, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və

onların istehsal həcminin çoxaldılması üçün ölkəmizin hər yerində müəyyən istehsal potensialı yaranmışdır. Aqrar sektorun müxtəlif sahələri üzrə məşğulliyyət ölkəmizin rayon və kəndlərində yaşayan insanların ən əsas iş sahəsi kimi xüsusiyyət və rola sahibdir (Abasov İ.D., 2010, 2013).

Aşağıdakı histoqramda ölkəmizdə 2022-ci il üçün kənd təsərrüfatına yararlı torpaqların statistikası əks olunmuşdur. Şəkildən də göründüyü kimi bitkiçilik və heyvandarlıq sahələrinin inkişafı üçün kifayət qədər torpaq resursuna sahibik (şəkil 1).




**Şəkil 1. Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqlar, min ha**

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Aqrar sektorun inkişafına nail olunması və bu sahənin modelləşdirilməsi üçün ölkəmizdə hər cür şərait, zəngin təbii resurslar, təbii ehtiyatlar, sərvətlər, münbit torpaqlar və s. vardır.

Azərbaycan öz müstəqilliyini geri qazandıqdan sonra sonra ilk keçirilən geniş həcmli islahatlar elə məhz aqrar islahatlar olmuşdur. 1990-cı illərin ortalarından başlayaraq ölkəmizdə aqrar sektorun müxtəlif istiqamətləri üzrə inkişaf prioritetləri müəyyənləşdirilmiş və müvafiq infrastrukturların yaradılmasına işlərinə başlanılmışdır. Bununla bağlı dövlət demək olar ki, ölkəmizin bütün regionlarında infrastrukturun formalaşdırılması, inkişaf etdirməsi, yenidən qurulması, kənd təsərrüfatının inkişafı istiqamətində zəruri olan kompleks tədbirlərin görülməsi və eyni zamanda regionlarda - ucqar qəsəbə və kəndlərdə sahə üzrə şəraitin yaradılması, yolların çəkilməsi, körpülərin salınması, su infrastruktunun yaradılması, irriqasiya və

melorasiya tədbirlərinin görülməsi məqsədilə hər il dövlət büdcəsindən davamlı olaraq vəsaitlərin ayrılmasını təmin edilmişdir. Məhz buna görə də ölkəmizin kənd təsərrüfatının müxtəlif sahələr üzrə modelləşdirilməsinə nail olunmuş və təsadüfi deyildir ki, bir çox məhsullar üzrə (meyvə-tərəvəz, bostan bitkiləri, süd və süd məhsulları, ət və ət məhsulları və s.) idxaldan asılılıq əhəmiyyətli dərəcədə azaldılmışdır.

Ölkənin aqrar sektorunun əsas inkişaf xüsusiyyətləri sırasında dövlət dəstəyi mexanizmləri xüsusi yerə sahibdir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq olunmuş AKİA-nın vəsaitindən istifadə Qaydalarına əsasən AKİA tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə fermerlərə güzəştli kreditlərin verilməsi, eyni zamanda kənd təsərrüfatı istehsal vasitələrinin, texnikalarının, güzəştli şərtlərlə onlara satışı və ya lizinqinin maliyyələşdirilməsi üzrə xeyli sayda tədbirlər görülmüşdür.

Fermerlərə göstərilən dövlət dəstəyi mexanizmləri davam etdirilməkdədir. Belə ki, 2024-cü il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının təyin edilməsi ilə bağlı qərar qəbul etmişdir. Sözügedən qərarə əsasən çəltik bitkisinin əkiminə görə subsidiyanın miqdarı 360 manatdan 380 manata, yonca əkinləri üçün 50 manatdan 70 manata, giləmeyvə əkən fermerlərə verilən subsidiya 230 manatdan 240 manata, müasir suvarma sistemləri ilə təmin olunmuş bağlara görə subsidiya 250 manatdan 300 manata qədər artırılmışdır. Bundan başqa fermerlərin tədarük məntəqələrinə gətirərək təhvil verdikləri pambıq bitkisinin hər tonuna görə verilən məhsul subsidiyasının miqdarında da artım edilmişdir. Yaş tütünün Vırciniya sortuna görə verilən subsidiyanın miqdarında da artım edilmişdir. (https://www.agro.gov.az/az/news/06.09.2023).

**Şəkil 2. 2012/2022-ci illər ərzində əsas kənd təsərrüfatı prioritet bitkilərinin istehsal dinamikası (min ton)**




**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Yuxarıda 2012 və 2022-ci illər ərzində əsas kənd təsərrüfatı prioritet bitkilərinin istehsal dinamikasını əks etdirən histoqram verilmişdir (şəkil 2).

Göstərilən dövlət dəstəyi mexanizmləri və həyata keçirilən layihələrin uğurlu nəticəsi kimi heyvandarlıq sahəsində də illər üzrə gözlə görülən inkişaf əldə edilmişdir. Şəkil 3 də bu barədə ətraflı məlumatlar əks edilmişdir. Ölkə üzrə 10 il ərzində gözlə görülən inkişaf dinamikası əks edilmişdir. Artım ət və heyvandarlıq məhsullarında qeydə alınmışdır.




| | Ət kəsilmiş çəkidə (min ton) | Süd (min ton) | Yumurta (milyon ədəd) | Bal (min ton) |
|---|---|---|---|---|
| 2012 | 276 | 1696 | 1227 | 2,4 |
| 2022 | 368 | 2265 | 2018 | 7,4 |

**Şəkil 3. 2012/2022-ci illər ərzində əsas heyvandarlıq məhsullarının istehsal dinamikası**

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Aşağıda 10 il (2012-2022) ərzində mal-qara və quş əti istehsalında olan artım dinamikası əks edilmişdir (şəkil 4).

Aqrar sahənin əsas inkişaf xüsusiyyətləri arasında qeyd edilənlərdən əlavə aşağıdakı digər məqamlar da əhəmiyyətli yer almaqdadır:

Təlim və təşviqat: Son dövrlərdə fermerlərə, sahibkarlara və aqrar sahədə işləyən digər şəxslərə məhsulların effektiv istehsalı, yeni texnologiyaların tətbiqi və qida təhlükəsizliyi ilə bağlı çoxsaylı təlim proqramları təşkil edilmiş və bu istiqamətdə layihələr həyata keçirilmişdir.

Aşağıdakı qrafikdə ölkəmizdə süd və süd məhsulları istehsalı sahəsində də illər üzrə gözləgörülə bilən artım dinamikası əks edilmişdir (Şəkil 5).




**Şəkil 4. İllər üzrə mal-qara və quş əti istehsalı, min ton**

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

**Şəkil 5. İllər üzrə süd və süd məhsulları istehsalı, min ton**




**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Təlimlərin keçirilməsi ilə əlaqədar KTN yanında AXA-nın Aqrar Təlim Mərkəzi yaradılmışdır. Bu günədək Təlim Mərkəzi ölkə üzrə fermerlərin bilik və bacarıqlarının artırılması istiqamətində çoxsaylı təlimlər təşkil etmişdir. 100 kənddə 100 təlim kampaniyası da bunlardan biridir. Kampaniya çərçivəsində fermerlərə gübrələrdən düzgün istifadə qaydaları, torpaqlara düzgün aqrotexniki qulluq göstərilmə yolları və sertifikatlı toxumdan istifadənin üstünlükləri, aqrokimyəvi analizlərin əhəmiyyəti istiqamətində təlimlər keçirilmişdir. Hansı ki bütün bunlar dayanıqlı kənd təsərrüfatına nail ola bilmək üçün başlıca şərtlərdən hesab edilir.

İnvestisiyalar və təşkilatçılıq: Ölkədə aqrar sektorun inkişafını dəstəkləmək məqsədilə böyük miqdarda sərmayə qoyuluşu və təşkilatçılıq tədbirləri vasitəsilə

investisiyalar yatırımı həyata keçirilməkdədir. Həm daxili, həm də xarici investorlar ölkədə aqrar sahəyə yatırım etməkdə maraqlıdırlar.

İstehsalın diversifikasiyası: Ölkəmiz istehsalın diversifikasiyasına böyük diqqət yetirir. Bu, təbii resurslardan və iqlim şəraitindən istifadə edərək müxtəlif məhsul növləri yetişdirməyə imkan verir. Nəticədə həm daxili, həm də xarici bazarlara müxtəlif cürə məhsul çıxarılır ki, bu da alıcı tələbatının ödənilməsi baxımından olduqca mühüm faktor hesab edilir.

## 2.2. Kənd təsərrüfatı layihələrinin təsnifləşdirilməsi və səmərəlilik göstəricilərinin təyin edilməsi

Ərzaq təminatımızı artıra bilmək və onu qoruyub saxlamaq üçün aqrar sektorda dayanıqlı inkişafa nail olmaq olduqca vacib məsələlərdəndir. Buna nail olmaq üçün mütəmadi olaraq ölkəmizdə çoxsaylı layihələr həyata keçirilməkdədir. Azərbaycanda həyata keçirilən kənd təsərrüfatı layihələrinin təsnifləşdirilməsi, ölkənin kənd təsərrüfatı sektorundakı fəaliyyətlərinin və inkişaf planlarının düzgün idarə edilməsi və dəstəklənməsi üçün əhəmiyyətli bir məsələdir. Kənd təsərrüfatı layihələri geniş bir spektra malikdir, onların məqsədləri, hədəfləri və həyata keçirilən tədbirləri olduqca geniş və müxtəlifdir.

Azərbaycanda kənd təsərrüfatı sahəsində həyata keçirilən layihələr bəzi əsas kateqoriyalar nəzərə alınmaqla aşağıdakı kimi təsnifləşdirilə bilər:

1. Kənd təsərrüfatı infrastrukturunun inkişafı ilə bağlı layihələr: Bu istiqamətdə kənd yerlərində yeni yolların çəkilməsi, su təchizatı və sulama sistemlərinin qurulması, aqroparkların yaradılması, innovativ texnologiyalara cavab verən şəhərciklərin salınması, fermerlərə daha yaxşı xidmət göstərmək və onların xidmətlərə əlçatanlığını təmin etmək məqsədilə aqrar infrastruktur binaların tikintisi həyata keçirilmişdir. Bu istiqamətdə ölkəmizdə aqrar sahədə inkişafı sürətləndirən, ixracyönümlü məhsulların istehsalının artırılmasında böyük rol oynayan

aqroparkların tikintisi layihələrini nümunə göstərə bilərik. Hazırda Azərbaycanda 32 rayon üzrə 51 aqropark və iri fermer təsərrüfatları fəaliyyət göstərir. Aqropark və iri fermer təsərrüfatlarının 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşdırılmışdır.

İqtisadiyyat Nazirliyinin verdiyi məlumata əsasən keçən il ərzində ölkəmizdə fəaliyyətdə olan aqroparklarda ümumilikdə 96 milyon manatlıq məhsul satışı həyata keçirilmişdir. Həmçinin müasir suvarma sistemlərinin - pivot, damcı üsulu və sprinkler qurulması istiqamətində işlər həyata keçirilmişdir. Azərbaycanda su ehtiyatlarının effektiv idarə olunması üçün məlummatların təhlili, onların koordinasiyası istiqamətində potensialın artırılması, kənd təsərrüfatı məhsuldarlığının və ərzaq təhlükəsizliyinin inkişaf etdirilməsi, ölkəmizin təbii resurslarının xüsusilə torpaq və su ehtiyatları mühafizəsinin artırılması və qlobal iqlim dəyişikliyinin nəticələrinə qarşı kənd təsərrüfatının davamlılığının artırılması məqsədilə Təkmilləşdirilmiş su idarəçiliyi: kənd təsərrüfatının davamlı inkişafına doğru layihəsi həyata keçirilmişdir (2021-2023-cü illər). Qeyd edilən layihə çərçivəsində ölkəmizdə su idarəçiliyi və kənd təsərrüfatının inkişafı ilə sıx məşğul olan maraqlı tərəflər müəyyən edilərək, onların xəritələşdirilməsi prosesi həyata keçirilmişdir. Sözügedən xəritələşmə nəticəsində özəl, QHT və digər strukturlardakı su ilə birbaşa və ya dolayı yolla məşğul olan 200-dən çox şəxs arasında online sorğu keçirilmişdır, eləcə də 11 rayonda 300-dən çox fermer arasında su çatışmazlığı, müasir suvarma sistemləri və digər mövzularda innovativ sorğu aparılaraq onların fikirləri əsasında məlumatlar bazası hazırlanmışdır.

Hazırda işğaldan azad edilən ərazilərdə bir sıra infrastruktur layihələri həyata keçirilməkdədir. Belə ki, təməli 2021-ci il oktyabrın 26-da qoyulan ağıllı kənd təsərrüfatı kompleksi olan Dost aqroparkın yaradılması ilə bağlı layihə Zəngilan rayonunda həyata keçirilmişdir. Layihə nəticəsində 6000 ha ərazidə bitki mənşəli istehsal və texnika sahələrinin yaradılması, 10000 baş cins heyvanın saxlanılması

məqsədilə maldarlıq, həmçinin toxumçuluq və şitilçilik sahələrinin salınması həfədlənmişdır. Yeni yaradılacaq kompleksin regionun toxuma, gübrəyə və kənd təsərrüfatı avadanlıqlarına olan tələbatı ödəməsi nəzərdə tutulmuşdur. Eyni zamanda qeyd edilən layihə çərçivəsində Qarabağda istehsal edilmiş məhsulların “Made in Karabağ” brendi ilə dünya bazarına çıxarılması üçün Aqro marketin də yaradılması nəzərdə tutulmuşdur. Hazırda da, işğaldan azad olunmuş sahələrdə ən son innovativ üsullar tətbiq edilməklə həm bitkiçilik, həm də heyvandarlıq sektorunun inkişaf etdirilməsi, həmçinin sözügedən yerlərin yenidən bərpası və inkişaf etdirilməsi ilə bağlı yaşıl enerji zonası, Ağıllı kənd (Smart Village) konsepsiyası əsasında bölgə üzrə ağıllı kəndlərin layihələndirilməsi və inşası prosesi həyata keçirilməkdədir.

2. Kənd yerlərinin dayanıqlı inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən layihələr: Ağdaş, Yevlax, Şəki və Oğuz rayonlarının kəndlərində əhalinin yoxsulluq səviyyəsinin azaldılması məqsədilə İslam İnkişaf Bankı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (İFAD) maliyyə dəstəyi ilə 2012-2020-ci illər ərzində Kənd infrastrukturunun inkişafı və Sudan İstifadəedən Birliklərinə (SİB) dəstək, Kənd təsərrüfatı məhsuldarlığının və rentabelliyinin artırılması, Kənd Maliyyə Xidmətlərinin Göstərilməsi komponentlərindən və 7 sub-komponentdən ibarət olan “Kənd Yerlərinin Kompleks İnkişafı” layihəsi həyata keçirilmişdir. Layihənin icrası nəticəsində Yevlax və Agdaş rayonlarındakı təsərrüfatlarda təmir və yenidən qurma işləri həyata keçirilmiş, qeyd edilmiş rayonlarda fəaliyyət göstərən SİB lərin inkişafına dəstək edilərək zəruri mebel və avadanlıqlarla təchiz edilən ofis binaları tikilmiş, 124 kənddə 19000-dən çox təsərrüfata məxsus 55000 ha-dan artıq ərazinin suvarma suyu ilə təminatı gücləndirilmişdir. Eyni zamanda 26604 təsərrüfata aid olan 74439 hektar sahə təsərrüfat təyinatlı su ilə təmin edilmişdir. Layihənin icra edildiyi yerlərdə ümumilikdə 5000-dək təsərrüfatda 6000-dən çox iribuynuzlu heyvan süni mayalanma edilmiş və nəticədə 2500-dən çox yeni buzovlar əldə edilmişdir. Layihə çərçivəsində kənd təsərrüfatı məhsuldarlığı və rentabelliyinin artırılması

istiqamətində də işlər həyata keçirilmiş Fermerlər əkinçilikdə nəyi bilməlidirlər kitabı layihə icrası zamanı çap edilərək fermerlərə paylanılan bu sahədə lazımi vəsaitlərdəndir (https://agro.gov.az/az/news/kend-yerlerinin-kompleks-inkisafi-layihesinin-hesabati-teqdim-olunub).

3. Texnoloji inkişaf layihələri: Bu layihələr, kənd sahələrində texniki avadanlıqlara əlçatanlığın təmin edilməsinə, kəndlilərə daha effektiv və səmərəli işləmək üçün texnologiyaların təqdim edilməsinə və onlardan istifadənin təşviq edilməsinə, kənd təsərrüfatına innovativ texnologiyaların tətbiqinə yönəldilmişdir və avtomatlaşdırılmış əkin aparatlarının, sulama sistemlərinin, məhsul yetişdirmə və saxlama avadanlıqlarının təqdim edilməsini əhatə edir. Ölkədə fındıq istehsalının effektivliyini çoxaltmaq və aflatoksin maddəsinin mövcudluğu riskinin azaldılmasına xüsusi diqqət yetirməklə, istehsal edilmiş fındığın keyfiyyətini yüksəltmək üçün kiçik fermerlərə qabaqcıl kənd təsərrüfatı təcrübələrini tətbiq etmək imkanı yaratmaq, bitki zərərvericilərilə mübarizədə inteqrir mübarizə İPM sistemlərinin tətbiqinin təşviqi, məqsədilə FAO-nun maliyyə dəstəyi ilə 2020-2023-cü illər ərzində "Azərbaycanda fındıqçılıq sahəsində səmərəliliyin və dayanıqlılığın sürətləndirilməsi-HAZER" layihəsi həyata keçirilmişdir. Layihənin icrası zamanı ölkə ərazisində 50 fındıq nümayiş yerləri yaradılmış, 50 təlim sessiyası vasitəsilə 1000 fermerə təlimlər keçirilmişdir. Təsadüfi deyildir ki, layihənin icra müddəti ərzində ölkədəki fındıq istehsalı 18311.2 ton artmışdır. Belə ki, ARDSK-nın məlumatına əsasən ölkə ərazisində 2019-cu ildə fındıq istehsalı 53793.4 ton olduğu halda, 2022-ci ildə 72104.6 ton təşkil etmişdir.

Yerli iqlim şəraitinə uyğun və keyfiyyət standartlarına cavab verən pambıq sortlarının yaradılmasında nüvə texnologiyasının tətbiqi, eləcə pambıqçılıqda dayanıqlı istehsala nail olmaq üçün nüvə texnologiyası və onunla bağlı metodlardan istifadə olunmasına kömək göstərilməsi məqsədilə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin – IAEA maliyyə dəstəyi ilə 2017-2021-ci illər ərzində "Xəstəliklərə, quraqlığa və şoranlığa davamlı mutant pambıq xəttlərinin yaradılması" layihəsi

həyata keçirilmişdir. Layihənin icrası nəticəsində 4 il sonra (M1, M2, M3, M4) quraqlığa və şoranlığa davamlı mutant xətlər alınmışdır. Qlobal istiləşmə şəraitində Azərbaycanda pambıq istehsalının genişləndirilməsi üçün iqlim şəraitinə uyğunlaşan ağıllı kənd təsərrüfatı təcrübələrinin inkişaf etdirilməsi və yayılması məqsədilə 2022-2024-cü illəri əhatə edəcək Nüvə enerjisindən və digər üsullardan istifadə etməklə Azərbaycanda pambıq istehsalı üzrə Torpaq, Qida Maddələri və Su ilə bağlı Qabaqcıl Kənd Təsərrüfatı Təcrübələrinin gücləndirilməsi ilə bağlı layihə çərçivəsində ölkəmizdə müxtəlif torpaq iqlim şəraitində Pakistandan gətirilmiş 7 sort toxum nümunələri Samux, Beyləqan və Ucar rayonlarında təcrübə bazasının əkin sahəsində əkilmişdir. Pakistandan gətirilmiş 7 pambıq sortunun toxumlarından istifadə nəticəsində hər hektarın məhsuldarlığı 3 tondan 8 tona qədər artırılmışdır. Azərbaycanda nüvə enerjisi tətbiq olunan pambıq toxumlarının əkinindən yüksək nəticələr alınmışdır.

Bitki xəstəlik və zərərvericilərinə qarşı mübarizə effektivliyini artıraraq yüksək məhsuldarlığın əldə edilməsi və fermer xərclərinin optimallaşdırılması məqsədilə 2021-ci ildə KTN tərəfindən Rəqəmsal Kənd Təsərrüfatı layihəsinə başlanılmışdır. İqlim stansiyaları üzərində quraşdırılmış sensorlar vasitəsilə nəticədə havanın temperaturu, rütubət səviyyəsi, yağış miqdarı, yarpaqların nəm qalma müddəti, yağıntıların düşmə vaxtı və küləyin sürəti barədə məlumatlar əldə edilmişdir.

4. Bitkiçiliyin inkişafına təkan verən layihələr: kənd təsərrüfatı məhsullarının effektivliyinin artırılmasına, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, ekoloji təmiz kənd təsərrüfatı məhsulları yetişdirilməsi məqsədi daşıyır. Göstərilən fitosanitar xidmətlərin gücləndirilməsi, seçilmiş dəyər zəncirlərinin yaxşılaşdırılması eləcə də, aqrobiznes müəssisələrinə maliyyə xidmətlərinin göstərilməsi vasitəsilə kənd təsərrüfatı istehsalçılarının bazarlara çıxışlarına köməklik edilməsi məqsədilə Dünya Bankının maliyyə dəstəyi ilə 2016-2021-ci illər ərzində həyata keçirilən "Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi" layihəsi həyata

keçirilmişdir.

Bikilərin, ümumilikdə yaşıl kütlənin ən təhlükəli düşməni olan çəyirtkələrin yaratdığı təhlükənin öncədən proqnozlaşdırılması, qarşısının alınması və ya məhdudlaşdırılması, yəni çəyirtkə böhranlarının rastgəlmə tezliyinin və intensivliyinin təyin edilərək, baş verdiyi təqdirdə əkin sahələrinə, təbii otlaqlara, insan sağlamlığına və ətraf mühitə potensial təsirlərinin azaldılması yolu ilə Qafqaz və Mərkəzi Asiya ölkələrinin kənd əhalisinin ərzaq təhlükəsizliyi və rifahının yüksəldilməsini təmin etmək məqsədilə FAO-nun təşkilatçılığı ilə 2018-2022-ci illərdə həyata keçirilən Qafqazda və Mərkəzi Asiya ölkələrində çəyirtkə fəlakəti riskinin azaldılması ilə bağlı layihə çərçivəsində ölkəmizdə çəyirtkə fəlakəti riski kontrol altında saxlanılmışdır.

Ölkəmiz üçün sağlam toxumluq kartof istehsalı sistemlərinin yaradılması məqsədilə FAO-nun maliyyə dəstəyi ilə ilə 2018-2022-ci illərdə Azərbaycanda xəstəliklərdən azad kartof toxumçuluğu milli sistemin yaradılması ilə bağlı layihə həyata keçirilmişdir, layihənin icrası nəticəsində ölkəmizdə xəstəliklərə davamlı yeni kartof sortları (Əmiri 600, Telman, Sevinc sortları) yaradılmışdır. ARDSK-nın məlumatına əsasəm 2017-ci ildə ölkəmizdə kartof istehsalı 913899 ton təşkil etdiyi halda, layihə icrası tamamlandıqda bu miqdar 1074261 tona yüksəlmişdir.

Ölkəmızdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunun daha məhsuldar və dayanıqlı olmasının təmin edilməsi məqsədilə FAO-nun maliyyə dəstəyi ilə 2019-2024-cü illərdə “Mərkəzi Asiya və Qafqazda buğda pası xəstəliklərinin və xəstəliyə davamlılıq üzrə seleksiyanın idarə edilməsi üzrə regional əməkdaşlıq və milli imkanların gücləndirilməsi” layihəsi həyata keçirilmişdir. Layihənin icrası çərçivəsində ölkəmizdə pas xəstəliyinin vəziyyəti, ona qarşı mübarizə tədbirləri, pasa qarşı İnteqrir Bitki Mühafizə sisteminin qurulması, həmçinin bu sahədə fermerlərin maarifləndirilməsi və mütəxəssislərin bilik potensialının artırıması üçün tədbirlər həyata keçirilmişdir. Layihə müddəti ərzində 40 nəfər mütəxəssis üçün Cəlilabad və İmişli rayonlarında Buğda pasına qarşı

davamlı sortlar və İnteqrir Bitki Mühafizəsi tədbirləri mövzusunda təlim keçirilmişdir. Xəstəliyin ən çox müşahidə edildiyi Ağdam və Tərtər rayonlarında 60 nəfər fermerə təlim keçirilmişdir. Fermerlərə və mütəxəssislərə xəstəliyin yaranma səbəbləri, növləri haqqında məlumat verilmişdir və nümayiş tarlalarına səfər edilərək təyini metodları öyrədilmişdir. Yekun olaraq ölkə üzrə buğda pasının vəziyyətini və ona qarşı risk vəziyyətlərində yerinə yetiriləcək tədbirlərin müəyyənləşməsi üçün Milli strateji proqram və fövqəladə hal planı sənədi hazırlanmışdır.

5. Heyvandarlığın inkişafı ilə bağlı həyata keçirilən layihələr. Heyvanların cins tərkibinin və yemlənməsinin yaxşılaşdırılması strategiyalarının təkmilləşdirilməsi məqsədilə FAO-nun təşkilatçılığı ilə 2018-2022-ci illər ərzində “Azərbaycanda iribuynuzlu damazlıq heyvanların cins tərkibinin yaxşılaşdırılması və səmərəli yemləmə sistemlərin yaradılması vasitəsilə iribuynuzlu heyvandarlığın inkişaf etdirilməsi” layihəsi icra edilmişdir. Layihənin həyata keçirilməsi nəticəsində heyvan cins tərkibinin yaxşılaşdırılması və süni mayalandırma, embrion köçürmə xidmətləri və yemləmə sistemlərinin təkmilləşdirilməsi vasitəsilə iri-buynuzlu mal-qaranın məhsuldarlığının artırılması əldə edilmişdir. Belə ki, ARDSK-nın verdiyi məlumata əsasən 2018-2022-ci illər ərzində ölkə ərazisində ət istehsalı 2017-ci illə müqayisədə ümumilikdə 51407 ton artmışdır (2017-ci ildə 316827 ton, 2022-ci ildə 368234 ton), süd istehsalı müvafiq dövrlə müqayisədə 240535 ton artmışdır (2017-ci ildə 2024143 ton, 2022-ci ildə 2264678 ton) (https://www.stat.gov.az/source/agriculture/).

Ölkəmizdə qoyunçuluğun istehsalının dayanıqlı inkişafına nail olunması və müvafiq ərzaq dəyər zəncirinin yaradılması istiqamətində 2018-2022-ci illər ərzində FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı çərçivəsində “Qoyunçuluğun davamlı inkişafı və ərzaq məhsullarının istehsalı üzrə dəyər zəncirinin yaradılması və həyata keçirilməsi” adlı layihə həyata keçirilmişdir.

6. Sosial inkişaf layihələri: Bu layihələr, fermerlərin kənd təsərrüfatı sahəsində bacarıqlarının artırılması istiqamətdə onların təlimlərə cəlb edilməsinə, bilik və bacarıqlıarının artırılmasına, özünüməşğulluqlarının təmin edilməsinə

yönəldilmişdir. Gənclərin, o cümlədən həssas əhali qruplarından olanların özünüməşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi məqsədilə FAO-nun maliyyə dəstəyi ilə 2019-2022-ci illər ərzində AMAL həyata keçirilmişdir.

Kənd yerlərində yaşayan qadınların bacarıqlarını genişləndirilməsi istiqamətində təkmilləşdirilmiş ərzaq təhlükəsizliyi, sosial inklüziv kənd yerlərinin inkişafı və dayanıqlı yaşayışın təmin edilməsi məqsədilə FAO-nun təşkilatçılığı ilə Qadınların iqtisadi güclərinin artırılması yolu ilə ərzaq təhlükəsizliyi və kənd yerlərində yaşayış imkanlarının yaxşılaşdırılması ilə bağlı layihə həyata keçirilmişdir (2019-2022-ci illər). Sözügedən layihə çərçivəsində genderə həssas Aqrar Məsləhət Xidmətlərinin inkişafı üzrə İnstitusional Ehtiyacların Qiymətləndirilməsi aparılmış və 12 hədəf regiondan olan 277 layihə benefisiarına müxtəlif sahələr (kənd təsərrüfatı, aqroturizm və biznes) üzrə onlayn və yerlərdə təlimlər keçirilmişdir.

KTN-nin tabeliyində olan Aqrar tədarük və təchizat ASC tərəfindən “AFAQ - Aqrar Fəaliyyətli Azərbaycan Qadınları” layihəsi həyata keçirilir. AFAQ layihəsi kənd təsərrüfatı fəaliyyətli qadınların sahibkar kimi formalaşmasında, öz təsərrüfatlarında gəlirliliyin və məhsuldarlığın artırılmasına dəstək məqsədilə icra edilir.

Həmçinin hazırda “Şəhərdən Kəndə” sosial layihəsi həyata keçirilməkdədir. Layihə təsərrüfatların turizm potensialının artırılması yolu ilə ölkəmizə turist axınının gücləndirilməsi və fermerlər üçün əlavə gəlir imkanlarının yaradılmasını hədəfi daşıyır. Bu məqsədlə layihəyə qoşulmuş təsərrüfat sahiblərinin aqroturizm sahəsindəki biliklərinin inkişaf etdirilməsi üçün müxtəlif təlimlər həyata keçirilmiş və təsərrüfatların abadlaşdırılması üzrə tədbirlər icra edilmişdir. Layihə çərçivəsində www.tovillage.az saytı da istifadəyə verilmişdir. Aparılan monitorinqlərin nəticələrinə əsasən layihə icrası zamanı 2019-cu il ilə müqayisədə 2023-cü ildə regionlara aqroturizm məqsədilə turist axını 5 dəfə artmışdır. Layihə icra edildiyi gündən etibarən təsərrüfatlara səfər edən turist sayı ümumilikdə 230 min nəfər təşkil etmişdir. Ümumilikdə layihə çərçivəsində 175 təsərrüfatdan olan 221 fermerə

aqroturizmlə bağlı müxtəlif mövzularda təlimlər keçirilmişdir Təsərrüfat sahəsinin inkişaf etdirilməsi və turistlər üçün xidmət səviyyəsinin artırılması məqsədilə 22 təsərrüfatda abadlaşdırma işləri görülmüş və təsərrüfatlar müxtəlif avadanlıqlarla təmin edilmişdir (https://tovillage.az/about-us/).

Aqrar Tədarük və Təchizat ASC tərəfindən fermerlərin heç bir əlavə ödəniş etmədən yerli bazarlara çıxış imkanlarının artırılması məqsədi ilə “Kənddən Şəhərə” layihəsi də həyata keçirilməkdədir. Mütəmadi olaraq layihə çərçivəsində tematik (Yeni il, Novruz, Qurban bayramları ilə əlaqədar) və həftəsonu yarmarkarları təşkil edilir. Yarmarkaların təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanallarının yaradılması və şəhər sakinlərinin kənd təsərrüfatı məhsullarına olan tələbatının daha dolğun və yerli məhsullar hesabına ödənilməsidir. Fermerlər bu yarmarkalarda məhsullarını birbaşa alıcılara təqdim edə bilirlər. 2023-cü ildə paytaxtda təşkil olunan Kənddən şəhərə və arıçılıq məhsullarının 23-cü Respublika Sərgi-Satış Yarmarkalarında ümumilikdə 52 bölgədən 410 fermer məhsulunu satışa çıxarmışdı. Yarmarkalarda fermerlər tərəfindən alıcılara 100-dən çox kənd təsərrüfatı məhsulu təqdim olunmuş, ümumilikdə 298.5 ton məhsulun satışı həyata keçirilmişdir. (https://azertag.az/xeber/oten_il_kendden_sehere_ve_bal_yarmarkalarinda_52_bolgeden_410_fermer_mehsul_satisa_chixarib-2901274).

8. Ətraf mühitin və insan sağlamlığının qorunması ilə bağlı layihələr. Ölkəmizdə ərzaq israfı və tullantıların azaldılması istiqamətində regional əməkdaşlığın inkişaf etdirilməsi, insan sağlamlığı və ətraf mühit üçün risklərin azaldılması məqsədilə FAO-Türkiyə Tərəfdaşlıq proqramı çərçivəsində 2019-2023-cü illər ərzində Mərkəzi Asiya üzrə Subregional Ofis ölkələrində ərzaq israfı və tullantısının azaldılması adlı layihə həyata keçirilmişdir. Layihə nəticəsində ərzaq israfı və tullantıların azaldılması sahəsində uzunmüddətli regional əməkdaşlığın inkişaf etdirilməsinə, milli potensialın çoxaldılmasına, sahə üzrə təlimçilərin yetişdirilməsinə, mövcud risklərin qabaqcadan proqnozlaşdırılmasına, onların

monitorinqi və təhlili sistemlərinin tətbiqinə, həmçinin bu sahədə insan sağlamlığı və ətraf mühit üçün risklərin azaldılmasına nail olunmuşdur. Kənd əhalisinin enerji təhlükəsizliyinin təmin edilməsini əsas götürərək Cənubi Qafqazdakı torpaqların, eləcə də digər təbii resurslardan davamlı istifadə edilməsi məqsədilə əsas şərtlərin təkmilləşdirilməsi məqsədilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti GİZ-in təşkilatçılığı ilə 2018-2022-ci illər ərzində Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması ilə bağlı layihə icra edilmişdir. Layihə çərçivəsində aidiyyəti qurumlarla birlikdə aqrar sektorda sudan davamlı istifadə ilə bağlı məlumatlar toplanılaraq təhlil edilmiş və suvarma suyuna olan tələbatla bağlı yeni yanaşma işlənilib hazırlanmışdır. Torpaqların məhvinin, onların erroziyaya və deqredasiyaya uğramasının qarşısının alınması, aqrobiomüxtəlifliyin əldə edlməsi sahəsində mütəxəssislərin, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə Qlobal Ətraf Mühit Fondunun dəstəyi ilə 2017-2022-ci illərdə Qlobal əhəmiyyətli aqro-bioloji müxtəlifliyin mühafizəsi və davamlı istifadəsi adlı layihə həyata keçirilmişdir. Layihə nəticəsində ölkəmizdə mövcud olan aqromüxtəlifliyin qorunması, saxlanılması, onlardan seleksiya zamanı istifadə edilməsi, hədəf rayonlarda (Şəki, Göyçay, Goranboy) yerli sortların yetişdirilməsinə və həmçinin bazarlara çıxmalarına dəstək göstərilmiş, tarla genbanklarında müşahidələr aparılmış fermerlərə təlimlər keçirilmişdir. Ətraf mühit üçün olduqca təhlükəli hesab edilən davamlı üzvi çirkləndiricilərlə çirklənmənin qarşısının alınması, ekoloji təmiz və bol məhsuldar kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və ətraf mühitin zərərli tullantılardan qorunması məqsədilə FAO-nun, Qlobal Ekologiya Fondunun və üzv ölkələrin dəstəyi ilə 2019-2023-cü illərdə Mərkəzi Asiya ölkələrində və Türkiyədə pestisidlərin dövriyyəsinin idarə edilməsi və davamlı üzvi çirkləndiricilərə aid edilən pestisidlərin zərərsizləşdirilməsi ilə bağlı layihə həyata keçirilmişdir. Layihə ətraf mühit eləcə də insan sağlamlığının qorunması üçün olduqca effektiv hesab olunur. Belə ki, SSRİ dövründə pestisidlərin istifadəsi ilə bağlı düzgün tənzimləmə mexanizminin olmaması səbəbilə çox sayda

köhnəlmiş pestisidlər Cəngi pestisid poliqonuna yığılmışdır. Layihə nəticəsində ölkə üzrə köhnəlmiş və istifadəyə yararsız pestisidlərin inventarlaşdırılması, onların məhv edilməsi üçün imkanların dəyərləndirilməsi, pestisidlərdən istifadəni azaltmaq məqsədilə zərərvericilərə qarşı inteqrir mübarizə metodlarından istifadə ilə bağlı respublikamızın müxtəlif rayonlarında təşviqat işləri aparılmışdır (https://afsa.gov.az/az/).

9. Fermerlərə dəstək mexanizmlərinin göstərilməsi ilə bağlı layihələr: İstehsal-istehlak korporativlərinin qurulması, onların səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, kiçik və orta fermerlər təsərrüfatlarının bazarda rəqabətqabiliyyətinin artırılması məqsədilə FAO-nun maliyyə dəstəyi ilə "Azərbaycanın kənd yerlərində kiçik və orta fermerlərin bazar rəqabət-qabiliyyətinin artırılması məqsədilə kənd təsərrüfatı (istehsal və istehsal-istehlak) kooperativlərinin təşviqi" layihəsi həyata keçirilmişdir (2023-2024-cü illər). Layihə kənd təsərrüfatının inkişafı üçün olduqca səmərəli hesab edilir belə ki, kənd təsərrüfatı kooperativlərinin yaradılması torpaq, eləcə də digər resurslardan daha səmərəli istifadə etməyə imkan verir və fermerlərin daha çox gəlir əldə etməsinə imkan yaradır. Bu üsul eyni zamanda yüksək rəqabətqabiliyyətli məhsul istehsalına şərait yaradaraq xarici bazarlara çıxış imkanını yaradır

Ölkəmizdə qeyri-neft sektorunun inkişafının şaxələndirilməsi məqsədilə kiçik və orta sahibkarların, eləcə də fermerlərin inkişafına dəstək göstərilməsi, mikro-, orta- və iri sahibkarlar üçün əlverişli biznes mühitinin qurulması məqsədilə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən həyata keçirilən "Özəl sektorun inkişafı" layihəsi (2019-2024-cü illər) çərçivəsində dövlət və özəl dəstək mexanizmlərinin təkmilləşdirilməsi, göstərilən xidmətlərin modernləşdirilməsi, prioritetləşdirilməsinə kömək edir. Layihə çərçivəsində bir neçə component birləşir ki, onlardan biri "Assosiasiyalarda qadınlar" komponentidir.

10. Fermerlərə göstərilən xidmət səviyyəsinin yüksədilməsi məqsədilə həyata keçirilən layihələr: ölkəmizdə baytarlıq, fitosanitar, texniki nəzarət xidmətlərinin

təşkili və toxumçuluq sahələrində fəaliyyətin təkmilləşdirilməsi, heyvan eləcə də, bitki sağlamlığının və ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə vermək məqsədilə FAO-nun dəstəyi ilə "AXA-nın Struktur İslahatı və Strateji İnkişafına Dəstək" layihəsi (2022-2024-cü illər) həyata keçirilmişdir. Sözügedən layihə 4 komponentdən ibarət olmuşdur. Layihə çərçivəsində bitki sortlarının mühafizəsi və toxumçuluq idarəetməsi xidmətlərinin təkmilləşdirilməsi, heyvan sağlamlığı, bitki mühafizəsi və pestisidlərin idarə olunması xidmətlərinin təkmilləşdirilməsi, kənd təsərrüfatı texnikası üzərində dövlət monitorinqinin həyata keçirilməsi, məsələləri çərçivəsində işlər görülmüşdür.

Beynəlxalq təcrübə əsasında sertifikatlaşdırma, ekspertiza və laboratoriya təcrübələrinin təkmilləşdirilməsi məqsədilə FAO-nun dəstəyi ilə həyata keçirilən "Beynəlxalq təcrübəyə əsaslanan sertifikatlaşdırma, ekspertiza və laboratoriya proseslərinin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikası KTN yanında Aqrar Xidmətlər Agentliyinə dəstək" layihəsi (2022-2025-ci illər) həyata keçirlməkdədir. Fermerlərlə işin operativliyinin təmin edilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi, kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin istiqamətləndirilməsi və dəstək mexanizmlərinin göstərilməsi məqsədi ilə respublikamızın 59 rayonunda Dövlət Aqrar İnkişaf Mərkəzləri yaradılmışdır.

## 2.3. Ərazi inkişafı və aqrar sahədə layihələrin xüsusiyyətləri, onların sosial-iqtisadi səmərəliliyə təsiri

KTN-nin 2023-cü ilin yekunlarına dair hesabatına görə kənd təsərrüfatı sahəsi üzrə məhsuldarlığın ümumi istehsal həcmi keçən ilin müvafiq dövrü ilə müqayisə edildikdə 3 dəfə artmışdır. 2023-cü il üçün kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcminin dəyəri 12210.6 milyon manat olmuşdur ki, bunun 6276.7 milyon manatı heyvandarlıq, 5933.9 milyon manatı isə bitkiçilik sahəsinin payına düşmüşdür.

2023-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan əlavə dəyərin ölkənin ÜDM-də payı ilkin məlumata görə 5.5 % olmuşdur ki, bu göstərici 2022-ci ildə 4.8 % təşkil etmişdir. 2024-cü ilin yanvar-fevral aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalında artım müşahidə edilir (cədvəl 1).

Araşdırmalar göstərir ki, respublikamızın kənd təsərrüfatı məhsullarının ixracının əsasını məhz elə bitkiçilik sahəsində becərilən məhsullar təşkil edir. Bu baxımdan bitkiçilik məhsullarının istehsalının artırılması ölkə üzrə ixrac potensialının səviyyəsinin yüksəldilməsində mühüm rola malikdir.

**Cədvəl 1. Kənd təsərrüfatı məhsullarının istehsalı**

| Məhsulun adı | Ölçü | Yanvar-Fevral 2024 | Yanvar-Fevral 2023 | Ötən ilin analoji dövrünə nisbəti % |
|---|---|---|---|---|
| Süd | min ton | 324.5 | 322.3 | 100.7 |
| Yumurta | mln ədəd | 367.8 | 355.6 | 103.4 |
| Tərəvəz | min ton | 41.0 | 39.5 | 103.7 |

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Ölkəmizdə aqrar sektorun davamlı inkişaf strategiyasının əsas vasitəsi olaraq həyata keçirilən regionların sosial-iqtisadi inkişafı siyasətinin tətbiq edildiyi son 10 il ərzində kənd təsərrüfatı sahəsində ümumi məhsul istehsalında artım qeydə alınmışdır. Son illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun dinamikası aşağıdakı kimi olmuşdur (cədvəl 2).

**Cədvəl 2.Kənd təsərrüfatının ümumi məhsulunun dinamikası və strukturu**

| İllər | Cəmi, milyon manat | O cümlədən | | Xüsusi çəkisi | |
|---|---|---|---|---|---|
| | | Bitkiçilik məhsulları, milyon manat | Heyvandarlıq məhsulları, milyon manat | Bitkiçilik məhsulları, faizlə | Heyvandarlıq məhsulları, faizlə |
| 2018 | 7010,0 | 3186,0 | 3824,0 | 45,4 | 54,6 |
| 2019 | 7836,7 | 3751,2 | 4085,5 | 47,9 | 52,1 |
| 2020 | 8428,9 | 4028,4 | 4400,5 | 47.8 | 52.2 |
| 2021 | 9163,4 | 4511 | 4652,4 | 49.2 | 50.8 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2022 | 10984,2 | 5538 | 5446,2 | 50.4 | 49.6 |
| 2018-ci ilə nisbətən 2022-ci ildə faizlə | 156.7 | 173.9 | 142.4 | X | X |

**Mənbə:** ARDSK-nın məlumatları əsasında müəllifin hesablamaları

Məlumdur ki, dövrümüzün ən əsas problemlərindən biri qida təhlükəsizliyi məsələsidir. Sözügedən məsələ həm siyasi anlamda, həm də iqtisadi əhəmiyyət daşıyır və milli təhlükəsizliyin əsas elememti hesab edilir. Ölkə əhalisinin hüquq və mənafelərinin müdafiə olunması, ölkə üzrə sosial sabit vəziyyətin saxlanılması, idxaldan asılılığın qarşısının alınması, xaricə valyuta axınının qarşısının alınması baxımından ərzaq təhlükəsizliyinin təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə son illər həyata keçirilən layihələr əhəmiyyətli dərəcə müsbət tendensiyalara gətirib səbəb olmuşdur.

Heyvandarlıq sahəsində isə təəssüf ki, məhsul istehsalının həcminin çoxaldılmasınabaxmayaraq, qeyd edilən sahə üzrə ixrac səviyyəsi özünütəminetmə səviyyəsində deyildir. Belə ki, istehsal edilən heyvandarlıq məhsullarının çoxsu ilə hazırda daxili bazarda mövcud olan tələbat ödənilməyə çalışılır.

Aqrar sahədə bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində aqrar sektorun inkişafı həlledici rola sahibdir. Belə ki, kəndli fermer təsərrüfatlarında istehsal eləcə də, iqtisadi məsələlər təsərrüfatlar tərəfindən sərbəst şəkildə həll edilir, təsərrüfatsızlıq kimi mənfi hallara yol verilmir, sərf edilən resurslar və əməklər təyinatı üzrə yönəldilir. Kəndli fermer təsərrüfatlarının torpaq sahələrindən, maliyyə vəsaitindən, işçi qüvvəsindən eləcə də digər resurslarında daha effektiv və dolğun istifadə etmə yolu ilə məhsul istehsalının həcminin artırılmasında, onun keyfiyyətinin yüksəldilməsində, məhsul vahidi hesabına əmək və vəsait sərfininin aşağı salınmasında, gəlirlərini çoxaltmaqda, iqtisadi əlaqə və münasibətləri daha effektiv şəkildə tənzimləməkdə maraqlıdırlar. Belə ki, məhsul istehsalı çoxaldıqca, əldə olunan gəlirlər artıqca, iqtisadi effektivlik yüksəldikcə kənd

təsərrüfatı üzvlərinin öz şəxsi mənfəətləri də artmış olur və onların yaşam şəraitləri də buna bağlı olaraq yaxşılaşır və öz növbəsində təsərrüfatlarının gələcək inkişaf etdirilməsi imkanları da genişlənmiş olur (Əliyev R.M., 2003; Ataşov B.X., 2017).

Ərazi inkişafına, kəndli-fermer təsərrüfatlarının sürətlə inkişaf etdirilməsinə nail olunması cəmiyyət üçün də olduqca önəmli məsələlərdəndir. Bütün bunlar nəzərə alınaraq hazırda ölkəmizdə aqrar sahədə uğurla həyata keçirilən layihələr vasitəsilə ölkənin sosial-iqtisadi durumdan iqtisadi və ictimai müəssisələrin inkişaf səviyyəsindən asılı olaraq, səmərəli aqrar siyasət modellərindən geniş şəkildə istifadə edilir. Səmərəli aqrar siyasət deyildikdə ölkənin resurslarından ən az səviyyədə istifadə olunmaqla əhalinin tələbatını ən yüksək səviyyəyə çatdırmağı bacaran fəaliyyətlər nəzərdə tutulur.

**Cədvəl 3. Kənd təsərrüfatının ümumi məhsulu, mln manatla (müvafiq illərin faktiki qiymətlərilə)**

| **İllər** | **Cəmi** | **o cümlədən** | |
|---|---|---|---|
| | | **bitkiçilik məhsulları** | **heyvandarlıq məhsulları** |
| **Bütün təsərrüfat kateqoriyaları** | | | |
| 2017 | 6 580.0 | 3 019,0 | 3 561,0 |
| 2018 | 7 010.0 | 3 186,0 | 3 824,0 |
| 2019 | 7 836.7 | 3 751,2 | 4 085,5 |
| 2020 | 8 428.9 | 4 028,4 | 4 400,5 |
| 2021 | 9163.4 | 4511.0 | 4652.4 |
| 2022 | 10984.2 | 5538.0 | 5446.2 |
| **Kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar** | | | |
| 2017 | 645,4 | 238.5 | 406.9 |
| 2018 | 660,9 | 262.1 | 398.8 |
| 2019 | 713,2 | 321.0 | 392.2 |
| 2020 | 834,5 | 438.3 | 396.2 |
| 2021 | 885.9 | 467.3 | 418.6 |
| 2022 | 1094.0 | 509.2 | 584.8 |
| **Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları** | | | |
| 2017 | 5934,6 | 2780,5 | 3154,1 |
| 2018 | 6349,1 | 2923,9 | 3425,2 |
| 2019 | 7123,5 | 3430,2 | 3693,3 |
| 2020 | 7594,4 | 3590,1 | 4004,3 |

| | | | |
|---|---|---|---|
| 2021 | 8277.5 | 4043.7 | 4233.8 |
| 2022 | 9890.2 | 5028.8 | 4861.4 |

**Mənbə:** https://www.stat.gov.az/source/agriculture/

Yuxarıda qeyd edilən cədvəldən də görünür ki, ölkəmizdə aqrar islahatlar həyata keçirildiyi dövr ərzində 6 milyard 580 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdirsə, 2022 - ci ildə bu rəqəm 10 milyard 984.2 milyon manat olmuşdur (cədvəl 3).

Ölkəmizdə kənd təsərrüfatı sahəsində 2025-ci ilə qədər olan dövr üçün uzunmüddətli baxış, bazar münasibətlərinə əsaslanan rəqabətə dayanıqlı kənd təsərrüfatı yaratmağı nəzərdə tutur. Aqrar sektor üzrə məhsul istehsalında 2025-ci ildən sonrakı dövrə aid əsas prioritet yüksək innovativ inkişafa əsaslanan sənayeyönlü və ekoloji standartların tələblərini qarşılayan, eləcə də qlobal dünyaya uğurlu inteqrasiya edilmişş kənd təsərrüfatının yaradılmasını əsas sayır.

Aqrar sahədə həyata keçirilən layihələrin sosial-iqtisadi səmərəliliyi aşağıdakılarla təmin edilə bilər:

- Aqrar sahə üzrə məhsullarının istehsalının artımının təmin olunması üçün müxtəlif təminat vasitələrindən və metodlarından səmərəli şəkildə istifadə edilməsi
- Aqrar sahədə fermerlərə verilən güzəştli vergilərin, kredit və sığorta mexanizmlərinin tətbiq olunma səviyyəsinin yüksəldilməsi;
- Daxili bazarda sabitliyin təmin ediməsi və ayrı-ayrı bitkiçilik və heyvandarlıq məhsullarının bazar qiymətlərinin maya dəyərindən aşağı ola biləcəyi hallar üçün kənd təsərrüfatı məhsullarının mn və max alış qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi;
- Kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün yerli istehsal edilən məhsulların beynəlxalq standartların tələblərinə cavab verən şəkildə qablaşdırılması və etiketlənməsinə kömək göstərilməsi və onların xarici bazarlara çıxarılması;

- Kənd təsərrüfatı istehsalçılarının ölkə daxilində və həmçinin xarici ölkələrdə təşkil edilən yarmarka, sərgilərdə iştirakınaköməyin göstərilməsi;
- Aqrar sahədə emal və tədarüklə məşğul olan təsərrüfatların müəssisələrinin ərazi üzrə səmərəli şəkildə yerləşdirilməsinə kömək göstərilməsi;
- Kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi üçün zəruri olan gübrələrin, pestisidlərin, eləcə də texnoloji avadanlıqların onların ehtiyat hissələrinin və qablaşdırma məhsullarının idxal ediməsinə güzəştli gömrük şərtləri mexanizmlərinin tətbiq edilməsi;
- Aqrar sahədə aztəminatlı olan ailələrə məqsədli şəkildə güzəştlərin tətbiqi və bilavasitə subsidiyaların verilməsi və güzəştli kredit mexanizminin formalaşdırılması;
- Aqrar sahədə inhisarçılığın qarşısının alınması məqsədilə qiymətqoymada çevik siyasətin, həmçinin qiymət qoymanın prinsip və mexanizmlərinin dəqiq təyin edilməsi;
- Bölgələrdə və kənd yerlərində kiçik emal yaradılması və ərazi üzeə inkişaf etməsinin təmin edilməsi;
- Kənd təsərrüfatı istehsalçılarına göstərilən bəzi xidmət şəbələrinin (aqromarketinq və aqroservis xidmətləri şəbəkəsinin) səviyyəsinin artırılması və s.

Aqrar sahənin inkişafına gətirib çıxaran və reallaşdırılması zəruri hesab edilən kompleks layihələr ölkənin aqrar siyasətinin əsas prioritet istiqamətləri kimi qəbul edilməlidir.

Ölkəmizdə aqrar sahədə həyata keçirilən layihələrin, sözügedən sahənin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2024-cü ilin yanvar-fevral aylarında ölkədə 18576.9 milyon manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisə etdikdə 5 faizdən çox ÜDM istehsal edilmişdir və qeyri-neft sektorunda əlavə dəyər 10.1 faiz artmışdır. ÜDM istehsalının 2.7 faizini kənd təsərrüfatı təşkil etmişdir, bu rəqəm 2023-cü ildə 2.5 faiz olmuşdur

(https://www.stat.gov.az/source/agriculture/).

# FƏSİL III. AZƏRBAYCANDA AQRAR SEKTOR ÜZRƏ İNKİŞAF LAYİHƏLƏRİNİN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ONLARIN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

## 3.1. Aqrar sahənin rəqabətqabiliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən layihələrin səmərəliliyinin qiymətləndirilməsi

Kənd təsərrüfatı sektoru daxili və xarici bazarlarda rəqabət aparmaq üçün güclü potensiala malik olan ölkəmizin qeyr-neft sektoru iqtisadiyyatının əsas komponentidir. Aqrar sektor, həmçinin, ərzaq təhlükəsizliyi kontekstində prioritet sahə hesab olunur. Bu baxımdan aqrar sahənin rəqqabətqabiliyyətinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qeyd edilən məqsədlə əlaqədar 2016-2021-ci illər ərzində Dünya Bankının maliyyə dəstəyi ilə ölkəmizdə "Kənd təsərrüfatının rəqabətqabiliyyətinin gücləndirilməsi" layihəsi həyata keçirilmişdir. Layihənin əsas məqsədi ölkəmizdə həyata keçirilən fitosanitar xidmətlərin seçilmiş dəyər zəncirlərinin gücləndirilməsi və aqrobiznes müəssisələrinə maliyyə xidmətlərinin göstərilməsi vasitəsilə kənd təsərrüfatı istehsalçılarının bazarlara çıxışına köməklik göstərilməsi olmuşdur. Layihənin icrası zamanı kənd yerlərindəki məşğulluğu və məhsuldarlığı artırmaq, eyni zamanda aqro-ərzaq mallarının dəyərini çoxaltmaq məqsədi qoyulmuşdur. Layihənin icra müddəti 5 il olmuşdur. Layihə portfeli şəklində icra edilmiş, 4 komponent və 5 subkomponentdən ibarət olmuşdur:

Komponent A: Sanitar və fitosanitar xidmətlərə dəstək məqsədi daşıyırdı və özündə üç subkomponenti əhatə edirdi. Subkomponent A1 qida təhlükəsizliyi standartları üzrə potensialın gücləndirilməsini dəstəkləmək və Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) nəzdində yaradılacaq qida təhlükəsizliyi üzrə milli təlim mərkəzinə investisiya yatırmaq, subkomponent A2 bitki zərərvericilərinin diaqnostikası potensialını artırmaq və əsas kənd təsərrüfatı zərərvericilərə nəzarət mexanizmini qurmaq, onlarla bağlı təhlil potensialının gücləndirilməsinə xüsusi diqqət ayırmaq, subkomponent A3 isə Dövlət Baytarlıq Xidmətinin kənd baytarlıq

idarələrinin özəlləşdirilməsinin dəstəklənməsi ilə keyfiyyətinə təminat verilən baytarlıq xidmətlərinə əlçatanlığı və xəstəliklərə nəzarət və hazırlıq funksiyalarını daha da gücləndirmək məqsədi daşıyırdı.

Qida Təhlükəsizliyi üzrə Potensialın Gücləndirilməsi subkomponenti çərçivəsində kənd təsərrüfatı təyinatlı laboratoriya şəbəkəsinin optimallaşdırılması ilə bağlı diaqnostik təhlili və bu istiqamətdə strategiyanın hazırlanması həyata keçirilmişdir. Layihənin icrası zamanı 2005-ci ilin Baytarlıq haqqında qanununun yenidən nəzərdən keçirilməsi, sözügedən qanuna dəyişiklik edilməsinə nail olunmuş, heyvanların identifikasiyası və qeydiyyatı sisteminin qurulması təmin edilmişdir. Eyni zamanda bitki zərərvericilərinə nəzarət və zərərvericilərlə bağlı risk təhlili potensialının artırılması ilə bağlı Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının təlim materiallarına istinad edilərək fermerlərə müasir risk təhlili metodologiyaları üzrə iki mərhələli təlim keçirilmişdir. Təlimdə aidiyyəti dövlət qurumlarından 54 fitosanitar müfəttiş və mütəxəssis (bunlardan 18 qadın iştirakçı idi), ADAU-dan isə 22 tələbə iştirak etmişdir.

Layihənin Bitkilərin sağlamlığı və fitosanitar sistemin təkmilləşdirilməsi subkomponenti çərçivəsində Zərəvericilərin Vahid İdarəetmə sisteminin (ZVİ) yaradılması həyata keçirilmişdir. Kartof, alma, pambıq, yonca və yem bitkilərini əhatə edən üç fazalı ZVİ təlimində 1404 fermer və elmi-tədqiqat institutları, o cümlədən 608 qadının iştirakı təmin edilmişdir.

Heyvanların sağlamlığı və baytarlıq xidmətləri subkomponenti çərçivəsində peyvənd və müasir müşahidə üsullarına əsaslanan brusellyoz xəstəliyinə qarşı heyvan xəstəliklərinə nəzarət üzrə milli proqram işlənilib hazırlanmışdır. Brusellyozla mübarizə məqsədi daşıyan pilot proqram respublikamızın dörd rayonunda uğurla həyata keçirilmişdir. Layihə sözügedən proqramın genişləndirilməsini dəstəkləmiş və təkcə qoyun, keçi və mal-qara sürüsünün tam peyvəndlənməsini əhatə edəcək kütləvi peyvənd kampaniyasını qurmaq məqsədli daşımamış, eyni zamanda Kənd Təsərrüfatı və Səhiyyə Nazirlikləri ilə əməkdaşlıq

çərçivəsində gələcək epidemioloji araşdırmalar üçün istinad serum bankını yaratmış, peyvəndləmədən öncə və sonra seroloji tədqiqatları aparmaq, məlumatları toplamaq və sübuta əsaslanan qərarlar qəbul etmək üçün səfərbər edə bilmişdir. Layihə çərçivəsində ümumilikdə 6,5 milyon qoyun və 2,37 milyon iri buynuzlu mal-qara peyvənd olunmuşdur. Peyvəndləmə heyvanlar arasında xəstəliyin yayılma səviyyəsinin azalması ilə nəticələnmişdir. Layihənin tamamlandıqdan sonra keçirilən sorğuya əsasən fermerlərin gigiyena qaydalarına əməl etməsi ilə bağlı məlumatlılığı 95 faizdən (ilkin göstərici) 99,2 faizə yüksəlmişdir. Bundan başqa subkomponent çərçivəsində özəl baytarlıq təcrübələrinə keçid də təmin edilmişdi. Layihənin sonuna qədər bütün ölkə ərazisində heyan xəstəliklərinin qarşısının alınması və onların müalicəsi məqdəsilə yeni üsullarının tətbiq edilməsi və biznes bacarıqlarının təkmilləşdirilməsi sahəsində sahə baytarlarının biliklərini yeniləmək məqsədilə 1373 özəl sahə baytarına genişmiqyaslı təcrübi və tətbiqi təlim proqramları da keçirilmişdir. Ölkə üzrə bütün sahə baytarlıq idarələrinin özəlləşdirilməsi mərhələli şəkildə həyata keçirilmiş və 2021-ci ilin sonunda respublikamızda özəl baytarlıq sisteminə keçid tamamilə təmin edilmişdir.

Komponent B aqrobiznes dəyər zəncirinin inkişafı ilə əlaqədar olmuşdur. Bu komponent tələbata əsaslanan investisiya təkliflərini qismən maliyyələşdirməklə dəyər zəncirlərinin inkişafına, eyni zamanda müxtəlif toxum növlərinin və bazara daxil olan toxumların keyfiyyətinin yaxşılaşdırılması üzrə fəaliyyətlərə kömək etmək məqsədi daşımışdır. Subkomponent B1 (Aqrobiznesə investisiyalar və məsləhət dəstəyi) dəyər zəncirləri iştirakçılarına effektiv tərəfdaşlıqların qurulması və layihə çərçivəsində maliyyələşdirilmək üçün sublayihə təkliflərinin hazırlanmasına dəstək vermək məqsədilə dəyər zəncirlərinin iştirakçılarına inkişaf dəstəyinin edilməsi, həmçinin aqrobiznes dəyər zəncirinin inkişafı ilə əlaqədar investisiya dəstəyinin göstərilməsi, subkomponent B2 (Toxumçuluq sektorunun inkişafı) isə dövlət sektoru tərəfindən toxum tədqiqatçılığı, bitkiçiliyin inkişaf etdirilməsi, bitki növlərin inkişafı və toxum istehsalı, onların emalı, dövlət toxum müfəttişliyi xidmətlərinin

təkmilləşdirilməsi, toxumların sınağı komissiyasına və özəl toxumçulara dəstək vermək məqsədi daşımışdır.

Komponent C: Aqrobiznesə maliyyə xidmətləri. Bu komponent çərçivəsində subkreditlər vermək və lizinq yolu ilə aqrobizneslər üçün investisiya maliyyələşdirməsinin mövcudluğunun genişləndirilməsi həyata keçirilmişdir. Belə ki, komponent yeni maliyyə məhsullarının tətbiqinin genişləndirilməsi, iştirakçı maliyyə təşkilatları üçün potensialın gücləndirilməsi, proqramının tətbiq olunması və aqrar sığorta mexanizmləri ilə əlaqədar texniki-iqtisadi əsaslandırmanın dəstəklənməsi, eyni zamanda müvafiq sahə üzrə risklərin qiymətləndirilməsi və məhsulun inkişafı sahəsində potensialın inkişafı məqsədi daşımışdır.

Layihə benefisiarları fərdi fermerlər, fermer qrupları və kiçik və orta kənd təsərrüfatı məhsulları emalı müəssisələri olmuşdur. Sözügedən layihə hökumətin 2025 və 2025-ci ildən sonrakı uzun müddətli strateji baxışına uyğun həyata keçirilmişdir. Belə ki, 2025-ci ilədək olan baxış ənənəvi fermer təsərrüfatından bazaryönümlü, əlavə dəyərli fermer təsərrüfatına keçidlə rəqabətədavamlı aqrobiznesin yaradılmasını prioritetləşdirməyi nəzərdə tutmuşdur. Bu baxışa nail olmaq üçün əsas elementlər emalçılar və kənd təsərrüfatı istehsalçıları arasında inteqrasiyanın gücləndirilməsi, kənd təsərrüfatı istehsalına yeni texnologiyaların tətbiqi və həmçinin maliyyə, bazar, resurslara, o cümlədən yüksək keyfiyyətli toxumlara əlçatanlığın artırılmasını təmin etmək lazım idi. Eyni zamanda layihə hökumətin kənd təsərrüfatı sahəsində olan mövcud strateji məqsədlərinə və "Azərbaycan Respublikasının 2019-2023-cü illəri əhatə edən Regionların Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı"na uyğun idi. Sözügedən Dövlət Proqramı iqtisadiyyatın diversifikasiyasını genişləndirməklə onun rəqabətqabiliyyətini və əhalinin məşğulluq imkanlarını artırmaq, regionlarda investisiya və innovasiya fəaliyyətini çoxaltmaqla ölkəmizdə regionların davamlı və tarazlı inkişafına dəstək vermək üçün əlverişli mühit yaratmaq məqsədi daşımışdır. Layihənin sonunda

seçilmiş dəyər zəncirləri və aqrobizneslərin bazarlara əlçatanlığının dəstəklənməsi ilə bağlı nəzərdə tutulan məqsədlərə tamamilə nail olunmuşdur.

Layihə indikatorlarından biri layihənin qrant vəsaitləri və kredit xətti ilə maliyyələşdirilən hədəf dəyər zəncirləri və aqrobizneslərin ən azı 60 faizində bazar məhsullarının artırılması idi ki, buna da tam nail olunmuşdur. Belə ki, 2015-2020-ci illərdə layihənin kredit xətti və qrant vəsaitləri ilə maliyyələşdirilən 61 faiz benefisiar aqrobiznes və hədəf dəyər zənciri bazar məhsullarında hədəf 40 faiz və ya daha artıq (orta rəqəmlə 78 faiz) artıma nail olmuşdur. Texnologiyalara yatırılan investisiyalar və keçirilən təlimlər üzrə layihə tərəfindən göstərilən dəstəkdən faydalanmış aqrobiznes müəssisələri yeni innovativ məhsulları işləyib hazırlamış və bununla da fermerlərin yeni yerli və beynəlxalq bazarlara çıxışları genişlənmişdir. Belə ki, 2017-2020-ci illərdə layihə çərçivəsində investisiya dəstəyi almış 12 dəyər zənciri sublayihəsində 2021-ci ildə etdikləri satış ilkin göstəricidən orta rəqəmlə 120 faiz artıq olmuşdur və məhsuldarlığın artması həmçinin istehsal xərclərinin azalması ilə istehsal həcmi ümumilikdə iki dəfə artmışdı. Kreditləşdirmə və dəyər zəncirinin inkişafı fəaliyyətləri müəssisələrdə investisiyalar, satış, yeni iş yerlərinin açılmasına mühüm müsbət təsirlər göstərmiş və bununla da, birbaşa olmayan benefisiarlara geniş fayda vermişdir.

Layihənin icrası zamanı aşağıda qeyd edilən digər nəticələrə də nail olunmuşdur:

Ölkəmizdə fermerlərə göstərilən sanitar və fitosanitar xidmətlərin keyfiyyətinin gücləndirilməsi təmin edilmişdir. Belə ki, heyvanlarda brusellyoz xəstəliyinin yayılmasının azalmasına nail olunmuşdur. Belə ki, peyvənddən sonrakı seroloji monitorinqin nəticələri 2015 və 2020-ci illərdə peyvənddən peyvənddən sonra xırdabuynuzlu heyvanlarda brusellyoz xəstəliyinin yayılmasının 23,1 faiz azaldığını göstərmişdir. Eyni zamanda zərərvericilərə nəzarət və zərərvericilərlə bağlı risklərin təhlili bacarıqlarının gücləndirilməsi hədəflərinə də nail olunmuşdur.

Seçilmiş dəyər zəncirlərinin gücləndirilməsi təmin edimişdir. Bu nəticə ilə bağlı əsas göstərici layihənin sonuna olan hədəfi də keçmişdir. Qeyd etmək lazımdır ki, layihə üzrə dəyər zəncirinin inkişafı üzrə fəaliyyətlər Azərbaycan üçün yeni və ilk idi. Yeni məhsuldar tərəfdaşlıqların qurulması və dəstəklənməsi məqsədilə layihənin sonuna olan hədəf 15 olsa da. lakin ölkə miqyasında 17-nə nail olunmuşdur. Sublayihələrin icrası yerlərdə layihənin başa çatdırılmasından sonra da davam edən müsbət nəticələr vermişdir. Belə ki, 12 sublayihə qənaətbəxş şəkildə tamamlanmışdır, digər 5-i isə layihənin bağlanması zamanı tam istehsalı həyata keçirmişdir. Layihə müasir və innovativ texnologiyalara investisiya yatırımlarını dəstəkləmiş və keçilmiş təlimlər fermerlərin təsərrüfatdaxili istehsalını artıraraq, onların mövcud potensialını və bazar fəaliyyətlərinə cəlb olunma stimullarını yüksəltmişdir. Ümumilikdə, layihənin sonuna 17 aktiv sublayihədən 404 istehsalçı benefisiar faydalanmışdır və onların 10 faizi qadınlar olmuşdur.

Layihə çərçivəsində toxumların keyfiyyətinin artırılması təmin edilmişdir. Layihə tərəfindən dəstəklənən toxumçuluq təsərrüfatlarında müasir toxum təmizləmə avadanlıqlardan istifadə edilməklə. Ümumilikdə toxum istehsalında keyfiyyətli toxumun həcminin artırılması nöqteyi nəzərindən layihə müddətinin sonuna nəzərdə tutulan 10 faiz əvəzinə 14,2 faiz artım qeydə alınmışdır. Eyni zamanda “Toxum sınaq laboratoriyalarının təkmilləşdirilməsi, laboratoriya potensialının artırılması” proqramının icra edilməsi nəticəsində toxum laboratoriyalarının avadanlıqlarla təmin olunması və fermerlərə təlimlərin keçirilməsinə, həmçinin laboratoriyaların akkreditasiyası işlərinə başlanılmağa nail olunmuşdur. Layihə, həmçinin bitki sortlarının inkişafı proqramını dəstəkləmək məqsədilə lazımi müəssisələri tədqiqat avadanlığı ilə təmin etmişdir. Bu proses əvvəllər fermerlər tərəfindən əl ilə aparılan biçini əvəz etmişdir. Nəticədə toxum təmizləmə potensialı gündə 4 tondan 12 tona qədər 3 dəfə artmış və tullantı materiallarının səviyyəsinin aşağı olması və yüksək cücərmə səviyyəsinin olması hesabına toxumun keyfiyyəti də yüksəldilmişdir. Əlavə olaraq, layihə zamanı Dövlət toxum sınağı laboratoriyalarına da dəstək verilmişdir.

Toxumların sınağı və sertifikatlaşdırılması sisteminin təkmilləşdirilməsinə göstərilən layihə dəstəyi 9 regional toxumların sınağı laboratoriyaları üçün avadanlığın təkmilləşdirilməsi ilə birlikdə müvafiq heyətin təlimini də əhatə etmişdir. Bu investisiyalar çərçivəsində özəl toxumçulara təqdim edilmiş sınaqlar və sertifikatların sayı əhəmiyyətli dərəcədə artmışdır, bu da öz nöbvəsində ölkədə yeni sortların idxal edilməsini həvəsləndirmək və yüksək keyfiyyətli toxumlar və təşviqat materiallarının hazırlanması üçün mühüm məsələlərdən biri hesab edilir. Ümumilikdə 2021-cı ildə toxumçulara 142230 ton buğda və arpa toxumu və 2940 ton tərəvəz toxumu ekvivalentində cəmi 5114 sınaq sertifikatı verilmişdir. Bu göstəricisi isə layihənin icrasından əvvəlki 2800 sertifikatla müqayisədə xeyli yüksək nəticə olmuşdur.

Xərc gəlir üsulunun tətbiqi göstərir ki, layihə öz hədəflərinə nail olmuş, heç bir xərc artımı olmadan tamamlanmışdır.

Layihənin sosial və iqtisadi effektivliyini qiymətləndirən zaman aşağıdakı məqamları da nəzərə almalıyıq;

1. Layihə onun qrant vəsaitləri ilə maliyyələşdirilən sublayihələrin icrası zamanı iştirak edən qadınların faiz nisbəti, qadınlar üçün keçilən təlimlərin sayı və kənd təsərrüfatı aktivləri eləcə də, xidmətləri ilə təmin olunan qadın fermerlər baxımından proqnozlaşdırılan hədəfləri aşmışdır. Layihə tərəfindən dəstəklənən texnologiyaların tətbiqi qadınların iş yükünün azaldılmasına kömək olmuşdur.

2. İnstitusional gücləndirmə. Layihə həm mövcud, həm də yeni yaradılmış institutların potensialının gücləndirilməsində xüsusi rol oynamışdır. Layihə yeni yaradılmış aidiyyəti qurumların, müəssisələrin ehtiyaclarını ödəmək və layihənin məqsədlərinə uyğun olaraq, mövcud potensialın gücləndirilməsi, infrastruktur və laboratoriyaların işinin təkmilləşdirilməsini təmin etməyə uyğunlaşdırılmışdır. Layihə, həmçinin qida təhlükəsizliyi, heyvanların sağlamlığı və baytarlıq xidmətləri sahəsində fəaliyyətlərin institusional dayanıqlığına zəmin yaradan qanunvericiliyin hazırlanması işlərinə təkan vermişdir.

3. Özəl sektorun maliyyələşdirilməsinin təmin edilməsi. Layihə dövlət

qurumlarının işini və proqramların icra keyfiyyətini gücləndirərək, kənd təsərrüfatına investisiyaları dəstəkləməklə bu sahəyə özəl investorları cəlb etməyə nail olmuşdur

4. Yoxsulluğun azaldılması və ümumi rifah halının artırılması. Layihə yoxsulluğun azaldılması və ümumi rifahın yüksəldilməsinə töhfə vermişdir. Belə ki, kənd təsərrüfatının qeydə alınan artımı ümumi iqtisadi artıma töhfə vermək potensialına malikdir.

5. Yeni iş yerlərinin yaradılması. Komponent B-nin 17 sublayihəsi çərçivəsində 1366 yeni iş yeri yaradılmışdır, bunlardan 1072 iş yeri (və ya 78,5 faiz) qadınlar tərəfindən tutulmuşdur. Komponent C çərçivəsində 2016 yeni iş yeri yaradılmışdır, bunlardan 872-sində yerli sahələr və istixanalardan tutmuş emal və qablaşdırma sahələrinə qədər müxtəlif istiqamətlərdə qadınlar olmuşdur.

6. Layihə bitkilərin mühafizəsi üzrə ali təhsili gücləndirməklə gələcək nəsil mütəxəssislərin yetişdirilməsinə və kadr bazasının yaradılmasına də yatırımlar etmişdir. A2 Subkomponenti çərçivəsində layihə Kənd Təsərrüfatı və Təhsil Nazirlikləri tərəfindən təsdiq edilmiş və ADAU-nun Aqronomluq fakültəsində yeni kurs kimi tədris olunan bitkilərin mühafizəsi üzrə yeni kurrikulumun hazırlanmasını dəstəkləmişdir. 2018-2021-ci tədris illəri ərzində yeni kursa 81 tələbə qəbul qeydə alınmışdır. Layihə tərəfindən bitkilərin mühafizəsi sahəsi üzrə 16 yeni xarici dərslik materialları alınmış və azərbaycan dilinə tərcümə edilmişdir.

7. Subkomponent B1 çərçivəsində sublayihələr ikinci dərəcəli benefisiarlar və daha çox regiona biliklərin effektiv şəkildə ötürülməsi sisteminə təsir göstərmişdir. Layihənin əlavə olaraq 1373 ədəd birbaşa olmayan benefisiarının olduğu barədə də məlumat verilmişdir. Dəyər zəncirinin sublayihələrindən kənarda olan bir neçə fermerlər tətbiq olunan yeni texnologiyalar və təcrübələri öyrənmək məqsədilə təlimlərdə iştirak etməklə və ya benefisiarların sahəsinə səfər etməklə öz təcrübələrini təkmilləşdirməyi bacarmışdılar.

8. Subkomponent B2 çərçivəsində toxumçuluğun inkişafı təmin edilmişdir. Belə ki, layihə dəstəyinin böyük hissəsi toxumçuluq, toxumların keyfiyyətinin

artırılması və onların sertifikatlaşdırılmasından məsul olan dövlət qurumları tərəfindən istehsal edilən sertifikatlaşdırılmış toxumların həcmi və keyfiyyətini artırmaq məqsədilə istifadə edilmişdir. KTN-nin məlumatına əsasən 2017-2021-ci illərdə layihənin icra müddətində sertifikatlaşdırılmış taxıl toxumu istehsalı 45 faiz (67745 tondan 97899 tona), sertifikatlaşdırılmış arpa toxumunun istehsalı isə 168 faiz ( 13941 tondan 37 353 tona) artmışdır.

9. Layihə iqlim dəyişikliyi ilə bağlı çağırışların aradan qaldırılması üçün aqrar sektoru daha güclü vəziyyətə gətirmişdir. Layihə fəaliyyətlərində iqlim dəyişikliyi ilə bağlı açıq mülahizələr olmasa da, toxumların keyfiyyətinin artırılmasının təmin edilməsi, bitki zərərvericilərinin idarəedilməsi üzrə təlim və tərəfdaşlıqlar çərçivəsində aqroiqlim normaları ilə bağlı təlimlərin keçirilməsi iqlimə adaptasiyaya kömək etmişdir, fermerlərə iqlim baxımından ağıllı kənd təsərrüfatı metodları üzrə təlim keçmək imkanı verilmişdir, məsələn, bal və bal məhsulları sublayihəsinin arıçılarına eyni sayda arı ailəsi ilə məhsuldarlığın artırılması yollarını izah edən arı ailələrinin necə və hara köçürülməsi yolları öyrədilmişdir.

10. Kənd yerlərində yeni iş yerlərinin açılması: 2016 iş yeri, o cümlədən qadınlar üçün 827 iş yeri yaradılmışdır.

11. Baytarlıq xidmətinin özəlləşdirilməsi və gücləndirilməsi: Dövlət baytarlıq xidmətinin özəlləşdirilməsi istiqamətində 2021-ci ilin noyabr ayında baytarlar üçün təlim, ləvazimat dəstlərinin təmin olunmasına dəstək göstərilmişdir. Layihə, həmçinin baytarların ali təhsili üçün tədris proqramının təkmilləşdirilməsi və universitetdə tədris fermasının yaradılması ilə əlaqədar proqramı da dəstəkləmişdir.

12. Heyvanların sağlamlığının yaxşılaşdırılması. Layihənin brusellyoza qarşı milli peyvənd kampaniyasına verdiyi dəstək nəticəsində xırdabuynuzlu heyvanlarda brusellyoz xəstəliyinin 23,1 faiz azalması ilə nəticələnmişdir.

13. Fitosanitariya xidmətlərinin yaxşılaşdırılması: Bitki zərərvericilərinin risk analizi üzrə təlim vasitəsilə əkinçilikdə zərərvericilərlə mübarizə üzrə dövlət potensialı gücləndirilmiş, fitosanitar xidmətlər təkmilləşdirilmişdir.

14. Toxumların sınağı və sertifikatlaşdırılması üzrə dövlət potensialının gücləndirilməsi. Layihə toxum istehsalı və emalı, toxumların sınağı və toxumların sertifikatlaşdırılması üzrə məsul dövlət qurumlarına geniş dəstək vermişdir.

Ümumilikdə, layihənin sosial və iqtisadi təsirləri olduqca müsbət qiymətləndirilir, çünki layihə kənd təsərrüfatının məhsuldarlığını, istehsalını və fermerlər və kənd sahibkarlarının gəlirlərini artırmış, bu da insan kapitalını gücləndirilməsində və yeni iş yerlərinin yaradılmasının genişləndirilməsində olduqca mühim əhəmiyyət kəsb edir.

## 3.2. Aqrar sahədə məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlərin sosial-iqtisadi səmərəliliyinin qiymətləndirilməsi

Bu günədək ölkəmizdə aqrar sahədə məşğulluğun artırılması, bu sahədə çalışan gənc mütəxəssislərə dövlət dəstəyinin göstərilməsi istiqamətində çoxsaylı tədbirlər, layihələr həyata keçirilmişdir. Belə ki, bu istiqamətdə ucqar kəndlərdə və həmçinin rayon yerlərində yaşayan gənclərin aqrar sahə üzrə öz biznes ideyalarının formalaşdırılmasına, onların reallaşdırılmasına, kənd təsərrüfatında yeni metodlardan istifadənin stimul edilməsinə dəstək verən, səmərəli və ətraf mühiti mühafizə edən, gənclərin yeni aqrar sektor və həmçinin idarəçilik metodları haqqında məlumatlanmasına yönələn və nəticədə gənc fermerlərdən ibarət ilkin kapitalın formalaşmasında rol oynamış KTN ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə əməkdaşlığı çərçivəsində 2019-2022-ci illər ərzində həyata keçirilən AMAL-ı misal göstərə bilərik. Məlumdur ki, ölkəmizin təxminən 2.7 milyon əhalisini (təqribən 30%) gənclər təşkil edir. Onların isə 48 %-i kənd yerlərində yaşayırlar. AMAL layihəsi gənclərin kənd təsərrüfatına olan marağını artırmaq, kənd yerlərində yaşayan gənclərin gəlir əldə etmək məqsədilə şəhərlərə axınının qarşısını almaq, eyni zamanda onların özünüməşğulluğunun təmin edilməsi məqsədi daşıyırdı.

Layihənin icra dövrü ərzində kənd təsərrüfatı ilə məşğul olmaq istəyən gənc xanımlara və həssas təbəqədən olan gənclərə sözügedən sahədə biznes ideyalarının reallaşdırılmasında və sosial vəziyyətinin yaxşılaşdırılmasına dəstək vermək, eləcə də regionlardakı gənclərin sahibkar kimi formalaşmalarına kömək etmək məqsədilə çoxsaylı silsilə tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə layihənin icrası zamanı Gənc fermerlər proqramı və Kənd təsərrüfatı sahəsində peşə təhsili proqramı həyata keçirilmişdir. Hansı ki bu proqramlar çərmivəsində gənclərin məşğulluq imkanlarının artırılması üçün onların zəruri bilik və bacarıqlara malik olmaları imkanları, texnoloji yeniliklərdən istifadə etmələri və ətraf mühitin qorunması ilə bağlı tədbirlər həyata keçirilmiş, gənc fermerlərin proqram çərçivəsində təşkil edilən təlimlərdə iştirakları təmin edilmişdir. Sözügedən layihə ölkəmizdə gənclərin inkişafı ilə bağlı həyata keçirilən siyasətə əhəmiyyətli dərəcədə töhvə vermiş, cəmiyyətin bütün sahələrində olduğu kimi aqrar sektorda da onların iştirak səviyyələrini artırmış, innovativ texnologiyalardan istifadə etməyi bacaran yeni nəsil fermerlərin formalaşmasına yol açmış, aqrar sektorda müasir informasiya və kommunikasiya texnologiyalarından effektiv şəkildə istifadənin təmin edilməsini təşviq etmişdir. Layihənin icra dövrü ərzində 10 pilot rayondan seçilmiş, gənc fermerlərə biznes ideyalarının formalaşdırılması yolları ilə bağlı müxtəlif mövzularda təlimlər keçirilmişdir. Layihəyə qoşulan fermerlərin biznes ideyalarının maliyyələşdirilməsinə illik 5 %-lə güzəştli kredit şərtləri ilə 30-40 min manata qədər kreditlər ayrılmışdır. Layihə kənd yerlərində gənclərin iş tapa bilməmə səbəbi ilə məcburi olaraq şəhərə axın etməsinin qarşısını almaqla, kənd yerlərindəki əhalinin rifahının artımını müəyyən miqdarda yüksəltməyə nail olmuşdur. Sözügedən layihə çərçivəsində ölkəmizin 4 rayonunda (Lənkəran,Masallı,Şamaxı və Şəki) həyata keçirilən pilot layihələrin icrasının nəticəsi olaraq, 125 hektar ərazidə yeni əkinlər aparılmış və 130 hektar əkin sahələri bərpa olunaraq, təmənnasız olaraq gənclərin istifadəsinə verilmişdir. Nəticədə 850 nəfər gənc fermer işlə təmin edilmişdir.

Layihə çərçivəsində benefisiarların aqrar məşğulluğunun artırılmasına dəstək olan Aqro-Mən müsabiqəsi də həyata keçirilmişdir. Müsabiqədə heyvandarlığın, bitkiçiliyin, arıçılığın, meyvəçiliyin inkişafı üzrə 59 müraciətə baxılmış, qiymətləndirilmiş və müraciət edənlərdən 5 nəfər qalib elan edilmişdir. Qaliblərə sertifikatlar təqdim olunmuş və qaliblərin tələblərinə uyğun avadanlıqlar alınaraq onlara təqdim edilmişdir.

Layihənin icrası zamanı sosial və iqtisadi inkişafa nail olunması istiqamətində aşağıdakı nəticələr əldə edimişdir:

Nəticə 1. İş yerlərinin yaradılması üçün milli prioritet və siyasətin formalaşdırılmasının kənd yerlərində yaşayan gənclərin layiqli məşğulluğunun təmin edilməsi konsepsiyası ilə uyğunlaşdırılmasına nail olunmuşdur. Belə ki, bu istiqamətdə kənd yerlərində yaşayan gənclərin layiqli məşğulluğu mövzusunda potensialın inkişaf etdirilməsi ilə əlaqədar onlara təlimlər keçirilmiş, kənd yerlərində yaşayan gənclərinin layiqli məşğulluğu, yaşıl kənd təsərrüfatı və yaşıl iş yerlərinin prioritetləşdirilməsi üçün əmək bazarı və potensial üzrə qiymətləndirmə aparılmış, gənclərin respublikamızın müxtəlif yerlərindəki əkin sahələrinə təcrübə məqsədli səfərləri təmin edilmişdir.

Nəticə 2. Milli AMAL şəbəkəsi yaradılaraq, maarifləndirmə və bilik mübadiləsi mexanizmləri qurulmuşdur.

Nəticə 3. Pilot AMAL-ın kompleks və qrant\kredit proqramı həyata keçirilmişdir. Belə ki, bu istiqamətdə "Gənc fermerlər" proqramı hazırlanmış, 200 nəfər seçilmiş namizəd üçün proqram təminatı üzrə biznes treninqləri keçirilmişdir. Gənc Fermerlər Proqramının iştirakçıları tərəfindən göndərilmiş biznes layihələr arasından 100 ən uğurlu təklif qiymətləndirilərək seçilmiş və proqramın benefisiarları üçün mentorluq və monitorinq sistemi qurulmuşdur.

Nəticə 4. Formal və qeyri-formal təhsil proqramları işlənib hazırlanmış, fermerlərin təhsil imkanları gücləndirilmişdir. Belə ki, informasiya mübadiləsini və müəyyən edilmiş yeni bacarıqların mənimsənilməsini dəstəkləmək məqsədilə yerli

qurumlarda zəruri tədris proqramları hazırlanmış və institusionallaşdırılmışdır. Bu istiqamətdə AMAL təlim resursları və tədris planları, materialları hazırlanmış, təlimçilərin təlimi (ToT) keçirilmiş, benefisarlar təlimə cəlb olunmuşdurlar.

Nəticə 5. Resurslara, xidmətlərə, maliyyə mənbələrinə və bazarlara çıxışın əlçatanlığı təmin edilmiş, özünüməşğulluq və digər məşğulluq imkanlarının yaradılmasının genişləndirilməsinə nail olunmuşdur. Bu istiqamətdə gənclərin özünüməşğulluq və ictimai məşğulluq imkanları üçün milli hökümət kredit və qrant proqramları uzlaşdırılmış, birliklərin, korperativlərin və birgə təsərrüfat subyektlərinin yaradılmasına dəstək və rəhbərlik edilmiş, təcrübə və məşğulluq sxemləri müəyyən edilmiş və məlumatlar paylanmış, layihə ərazilərində kənd-biznes inkubatorları üçün strategiya işlənilib hazırlanmışdır.

Layihənin səmərəliliyi aşağıdakılardan ibarətdir:

- Aqrar sahəyə marağı olan və bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclərin dəstəklənməsi həyata keçirilmişdir.
- Qabaqcıl ölkələrin təcrübəsindən yararlanmaq, bilik və bacarıqların artırılması istiqamətində aparılan ardıcıl işlər bu sahədə istehsal həcminin artırılmasına və gəlirlərin yüksəldılməsinə şərait yaratmışdır.
- Benefisiarların heyvandarlıq, meyvəçilik, quşçuluq və arıçılıq sahəsi üzrə ehtiyac duyduqları zəruri avadanlıqlara təchizatı, eləcə də bu avadanlıqlardan digər benefisiarların da istifadə etmələri təmin edilərək, layihənin səmərəliliyi bu yolla daha da artırılmışdır.
- Layihə çərçivəsində həyata keçirilən “Aqro-Mən” müsabiqəsinin 5 qalibinin zəruri avadanlıqlarla təhciz olunması, 30-a qədər digər benefisiarların da bu avadanlıqlardan istifadə etmək imkanları yaradılmışdır. Bu da gənclərin aqrar sahə üzrə öz biznes ideyalarının həyata keçirilməsinə yardımçı olmuşdur.

### 3.3 Aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi istiqamətində əldə edilən təcrübələr və perspektivlər

Ölkəmizdə neft-qaz sektoru məhsullarının istehsalının artımı və bu sahədən əldə edilən valyuta gəlirləri ilə əlaqədar dövlətin maliyyə imkanlarının çoxalması aqrar sahə üzrə fermerlərin xərclərinə dəstək mexanizminin həyata keçirilməsinə şərait yaratmışdır. Bu imkanlardan effektiv şəkildə istifadə edilməsi aqrar sektorda istehsalın ümumi iqtisadi şəraitini yaxşılaşdırmış, eyni zamanda ixrac məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsinə də gətirib çıxarmışdır. Bildiyimiz ki, ölkəmizdə kənd təsərrüfatı məhsullarına olan daxili tələbatın əksər hissəsini yerli istehsal qarşılayır və bu əslində sahə üzrə əhəmiyyətli uğurdur.

Aqrar sektorda rəqabətqabiliyyətli məhsulun əldə edilməsi üçün mövcud müəssisə və təsərrüfat subyektlərinin istehsal prosesində elmi məhsulların" tətbiqi müasir dövrün ən aktual məsələlərindən hesab edilir. Belə ki, inkişaf etmiş ölkələrdə aqrar məhsullar aqrar "elmi-istehsal" yerlərində hazırlanır. Ölkəmizdə də bunun həyata keçirilməsinə ehtiyac yaranmışdır. Buna nail ola bilmək üçün aqrar sənaye istehsalı ilə elmi tədqiqat müəssisələrinin birgə münasibətlərini təşkil etmək lazımdır (Alıyev İ.H., 2012).

Ölkəmizdə kənd təsərrüfatı üçün prioritet hesab edilən bitkilərin məhsuldarlığının artırılması məqsədilə dövlət tərəfindən çox saylı tədbirlər görülməkdədir. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalında istifadə edilən gübrə və dərman maddələrinə görə fermerlərə və sertifikatlı toxum istehsalçılarına subsidiyalar verilir. Əlavə olaraq pambıq, şəkər çuğunduru və tütün bitkilərinin əkininə görə fermerlərə əkin subsidiyası verilir ki, bu öz növbəsində birbaşa olaraq məhsuldarlıq səviyyəsinin yüksəldilməsi məqsədi daşıyır. Həmçinin aqrar sahədə yüksək məhsuldarlığı təmin edən intensiv bağların salınmasına görə də fermerlərə xüsusi subsidiya tətbiq edilir.

Ölkəmizdə aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi istiqamətində aşağıdakılara xüsusi diqqət etmək lazımdır:

İnnovativ texnologiyaların tətbiqi: Azərbaycan, aqrar sektorun modernləşdirilməsi üçün texnologiyalardan geniş istifadə edir. İrriqasiya, məhsul idarəetməsi, və gübrələmə kimi sahələrdə innovativ texnologiyaların tətbiqi sayəsində məhsuldarlıq artırılır və məhsulların keyfiyyəti yaxşılaşır.

Suvarma suyundan istifadənin dayanıqlılığı: Buraya ölkənin suvarma suyuna olan ehtiyacının təmin edilməsinin mövcud vəziyyəti, suvarma suyundan istifadə olunmanın tənzimlənmə mexanizmlərinin səmərəliliyi, innovativ suvarma metodlarının tətbiqi mexanizmləri və s. kimi göstəricilər daxildir. Bunlardan başqa su hövzələrinin hazırkı vəziyyəti də əsas dayvamlılıq məsələlərindən biridir. Aqrar sektorda gübrə və pestisidlərdən intensiv şəkildə istifadə olunması kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının çoxaldılmasına kömək etsə də, eyni zamanda ətraf çayları, suları, habelə yeraltı suları çirkləndirə bilir. Bu tip məsələlərin qarşısının almaqdan Sudan İstifadəedənlər Birlikləri yaradılmışdır.

Torpaqdan istifadənin dayanıqlılığı: Ölkəmizdə torpaqlardan daha səmərli istifadə olunmasının təmin edilməsi məqsədilə təsərrüfatların payına düşən torpaq sahələrinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən çoxsaylı tədbirlər həyata keçirilməkdədir. Bunlara iri aqroparkların yaradılmasını və fermerlər arasında korperativ əlaqələrin inkişaf etdirilməsi üçün təşviqat işlərinin aparılmasını misal göstərə bilərik. Əlavə olaraq, ölkədə vahid əkin sisteminin tətbiqi və torpaqların birgə istifadəsi ilə bağlı bir sıra işlər görülmüş KTN tərəfindən “Vahid sahədə vahid əkin” layihəsi həyata keçirilmişdir.

Təlim proqramları: Təlim proqramları çərçivəsində fermerlərə keçirilən təlimlər onların sahə üzrə səmərəli və müasir praktikaları öyrənmələrini təmin etmişdir. Bu, onların inkişaf edən texnologiyalardan və idarəetmə metodlarından faydalanmaqlarına və səmərəli məhsul yetişdirmələrinə dəstəkdir.

Özəl sektorların dəstəklənməsi: Azərbaycan Hökuməti aqrar sahədə aktiv fəaliyyət göstərən təşkilatların dəstəklənməsi və qurulmasına xüsusi diqqət etmişdir. Bu təşkilatlar, kəndlilərin məhsullarını bazara çıxardan və sərgiləyən, texniki dəstək təmin edən və sosial proqramları həyata keçirən platformalar kimi fəaliyyət göstərirlər.

Aqrar sahənin sosial dayanıqlığının təmin edilməsi: Bu istiqamətdə əsas məsələ kənd yerlərində əhalinin rifah halının yüksəldilməsinin təmin edilməsidir. Belə ki, kəndlərdə əhalinin, o cümlədən qadınların və gənc fermerlərinlayiqli həyat və məşğulluq səviyyəsinin təmin edilməsi məsələləri dövlətin hər zaman diqqətində olan məsələlərdəndir.

Dayanıqlı aqrar sektorun təmin edilməsi istiqamətində perspektivlər:

Texnologiya və inovasiyaların tətbiqi: Aqrar sektorda texnologiya və innovasiyaların daha geniş şəkildə tətbiq edilməsi ilə məhsuldarlıq artırıla bilər. Dronlar, sensorlar, məlumat analitikası və sürücüsüz traktorlar kimi yeni texnologiyaların aqrar sahəyə tətbiqi, iş proseslərini səmərəliləşdirərək məhsul keyfiyyətinin artırılmasını təmin edir. İnnovasiya siyasətinin iki əsas modeli vardır: Birincisi elmi texniki proqramların və dövlət əhəmiyyətli layihələrin icrası üçün həyata keçirilən siyasət və digəri elmi-texniki biliklərin yayılmasına yönəldilmiş innovasiya siyasəti modelləridir. Kənd təsərrüüfatının digər sektorlarla rəqabət apara bilməsi üçün innovasiya siyasəti əsasında dayanıqlı inkişafa nail olunmalıdır.

İnfrastrukturun sürətli İnkişafı: Aqrar sahədə infrastrukturun daha da inkişaf etdirilməsi, məhsulların xarici bazara çıxarılması proseslərini sürətləndirə bilər. Yol və sulama infrastrukturlarının təkmilləşdirilməsi, kəndlilərin məhsullarını asanlıqla bazarlara çatdırmasını və yerli, eləcə də beynəlxalq bazarlarda daha konkurentli olmalarını təmin etməyə şərait yarada bilər (Saka V.W., Maonga B.B., 2014).

İstehsal diversifikasiyası: Aqrar sektorda məhsul diversifikasiyası və yeni məhsulların yetişdirilməsi, sektorun sürətli inkişafına imkan verən məsələlərdəndir.

Məhsul diversifikasiyası ərzaq təhlükəsizliyi ilə bağlı mövcud riskləri azaltmaq və yeni bazarlara çıxış imkanları əldə etməyi təmin edir.

Xarici ədəbiyyatlarda aqrar sektorun davamlı inkişafının qiymətləndirilməsi üçün davamlılığın 3 komponentinə mütənasib olaraq göstəricilər sistemi təklif edilir. Bu göstəricilər aşağıdakı cədvəldə ümumiləşdirilərək qeyd edilmişdir (cədvəl 4).

**Cədvəl 4. Kənd təsərrüfatının dayanıqlılığının ölçülməsi üçün təklif olunan göstəricilər**

| | |
|---|---|
| Ekoloji | ➢ 1 hektar əkin sahəsində istifadə olunan gübrə, pestisid və suvarma suyunun miqdarı<br>➢ Torpağın tərkibindəki qidalı maddələrin miqdarı<br>➢ Qrunt sularının səviyyəsi<br>➢ Suvarma məqsədli qurunt sularının keyfiyyəti<br>➢ Sudan istifadənin effektivliyi<br>➢ Qrunt sularının təkibində nitratların miqdarı<br>➢ Aqro bio-müxtəlifliyin vəziyyəti |
| İqtisadi | ➢ Məhsuldarlıq səviyyəsi<br>➢ Təsərrüfatın xalis gəliri<br>➢ İstehsalın xərc-gəlir nisbəti<br>➢ Adam başına düşən ərzaqlıq taxıl istehsalı |
| Sosial | ➢ Ərzaqla özünütəminetmə səviyyəsi<br>➢ Gəlir və xərc bölgüsündə bərabərlik<br>➢ Resursların əlçatanlığı<br>➢ Fermerlərin bilikli və bacarıqlı olmaları |

**Mənbə:** Zhen, Lin & Routray, Jayant. (2003). Operational Indicators for Measuring Agricultural Sustainability in Developing Countries. Environmental management. 32. 34-46. 10.1007/s00267-003-2881-1

Kənd təsərrüfatı dünyada ərzaq təhlükəsizliyinin əsas təminatçısı olmaqla yanaşə, ətraf mühitə dağıdıcı şəkildə təsir göstərən fəaliyyət istiqamətlərindən biridir. Buna görə də aqrar sahədə davamıl inkişafa nail olmaq üçün məsələyə iki tərəfdən yanaşmaq lazımdır. Birincisi, aqrar fəaliyyətin ətraf mühitə vurduğu neqativ təsirlərin azaldılması və ya aradan qaldırılmasına nail olmaq, ikincisi isə qlobal iqlim dəyişikliklərinin kənd təsərrüfatı sahəsinə təsirinin azaldılmasını təmin etməkdir. Ümumilikdə, aqrar sektorun dayanıqlı inkişafına nail olunması üçün dayanıqlılığın üç aspekti də (ekoloji, iqtisadi və sosial) nəzarətdə saxlanmalıdır.

Aqrar sektorun dayanıqlı inkişafından bəhs edən zaman bu sektorun ekoloji dayanıqlığına da xüsusi diqqət etmək lazımdır. Belə ki, bu yaxşı haldır ki, ölkəmizdə

kənd təsərrüfatı sahəsinin atmosferə atılan çirkləndirici maddələrdəki payı kifayət qədər azdır (cəmi 200 ton). Belə ki, atmosferə atılan karbon qazı emissiyasında aqrar sektorun payı cəmi 13% hesablanmışdır. Qeyd edək ki, hazırda dünyada aqrar sektorun davamlı inkişafına nail olunması ilə bağlı bir sıra qlobal təşəbbüslər mövcuddur. Ölkəmiz də bu təşəbbüslərdən bəzilərinə qoşulmuşdur.

Aqrar sektorun davamlı inkişafından danışan zaman Naxçıvan Muxtar Respublikasında da bu sahədə həyata keçirilən layihələrin, tədbirlərin effektivliyinə diqqət etmək lazımdır. Belə ki, hazırda NMR-də aqrar sektorun dayanıqlı inkişafı ilə əlaqədar, sahə üzrə yeni çox saylı islahatların həyata keçirilməsi, innovativ istehsal sahələrinin yaradılması və digər sistemli layihələrin reallaşdırılması davam etdirilir. Belə ki, regionun aqrar sektorunda həyata keçirilən islahatlar bitkiçilik, heyvandarlıq sahəsinin inkişafı üçün geniş imkanlar yaradır. Qəbul edilən müvafiq dövlət proqramlarının icrası, aqrar fəaliyyət sahələrinin şaxələndirilməsi, icra edilən uğurlu layihələr məhsul bolluğunun əldə edilməsinə zəmin yaradır. Hazırda qeyd olunan bölgədə istifadə olunmayan yararsız torpaq sahələri həmçinin əkin dövriyyəsinə daxil edilir. Meliorasiya və irriqasiya sistemləri infrastrukturları yenidən qurulur, fermerlərə lizinq yolu ilə göstərilən texniki xidmət sahələri genişləndirilir, yeni təsərrüfat sahələri yaradılır. İldən-ilə heyvandarlığın cins tərkibi yaxşılaşdırılır, əhalinin məşğulluq səviyyəsi artırılır, arıçılıq təsərrüfatları genişləndirilir və arı ailələrinin sayı çoxaldılır. Aqrar sektor üçün strateji əhəmiyyət kəsb edən toxumçuluğa da diqqət ayrılır, fərdi təsərrüfatların genişləndirilməsi üçün hərtərəfli şərait yaradılır. Kənd təsərrüfatının dinamik inkişafı ölkəmizdə ərzaq təhlükəsizliyinin, əhalinin etibarlı qida təminatının və sosial dayanıqlılığının təmin edilməsinin əsas meyarıdır.

Aqrar sahənin uğurlu inkişaf strategiyası yaxın gələcəkdə ölkəmizin dünya bazarına bir sıra kənd təsərrüfatı məhsullarının əsas istehsalçı ölkəsi kimi daxil olmağa imkan verəcəkdir. Bu prosesin XXI əsrin III onilliyində daha intensiv hal alacağı proqnozlaşdırılır Uğurlu aqrar strategiya tətbiq etməyimizin nəticəsində ərazi

inkişafı təmin edilərək, dünya bazarında pambıq və pambıq parça məhsulları, üzümçülük və şərab məhsulları, meyvə-tərəvəz və konservləşdirilmiş məhsullar, bostan, tütün və tütünçülük məhsulları, toyuq əti, yumurta, quş və quşçuluq məhsulları, yun, barama kimi məhsulların ixracatçısına çevrilməyimiz və qeyd edilən sahələrdə davamlı inkişafa nail olunması nəzərdə tutulmuşdur (Ataşov B., 2017).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin yazılması zamanı aparılmış tədqiqat nəticəsində ölkədə aqrar sahədə həyata keçirilən layihələrin effektiv olmasının və sözügedən sektorun dayanıqlı inkişafının təmin edilməsi ilə bağlı aşağıdakılara diqqət yetirilməsi vacib hesab edilir.

Tədqiqat işinin 1-ci fəslindən əldə edilən nəticə və təkliflər aşağıda qeyd olunur:

- Layihələrin təsirinin çoxşaxəli olması (siyasi, iqtisadi və sosial) regionların iqtisadi potensialının hərəkətə gətirilməsində və iqtisadi fəallığın yüksəlməsində vacib faktordur.
- Hər bir rayonda kənd təsərrüfatının inkişafı həlledici iki amildən – istehsal edilən məhsul üçün ixrac pəncərəsinin olmasından və bu məhsulları son emal mərhələsinə çatdıran müəssisələrin fəaliyyətindən asılıdır. Hazırda bizim daxili bazar məhsul satışı üçün məhduddur. Buna görə də, yalnız daxili bazara yönəlməklə biznesi genişləndirmək mümkün deyil. Fermerlərlə yanaşı dövlət orqanları da bunu nəzərə almalı və bütün istiqamətlər üzrə ixracı dəstəkləməlidirlər.
- Hazırda iri təsərrüfatların yaradılması dövlət tərəfindən dəstəklənir. Ölkəmizdə iri aqroholdinqlər, aqroparklar fəaliyyət göstərir. Dünya təcrübəsi də bu təsərrüfatların özünü doğrultmasını bir daha təsdiq edir. Lakin bu hal xırda təsərrüfatların diqqətdən kənar saxlanılması mənasına gəlmir. Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalının və aqrar məşğulluğun 95 faizi xırda təsərrüfatların payına düşür. Aqroholdinqlər eləcə də, emal müəssisələri xırda fermer təsərrüfatlarının da maraqlarını nəzərə almalı və onlarla münasibətləri qarşılıqlı fayda əsasında qurmağı bacarmalıdırlar.
- Ölkədə həyata keçirilən aqrar siyasət iqtisadiyyatın diversifikasiyasını, qeyri-neft sektorunun sürətli inkişafını təmin etməlidir. İqtisadi artımın neft sektorundan

qeyri-neft sektoruna keçdiyi bir zamanda yeni aqrar-sənaye komplekslərinin yaradılması diqqət mərkəzində saxlanılmalı olan önəmli məsələlərdəndir.

Tədqiqat işinin 2-ci fəslindən əldə edilən nəticə və təkliflər aşağıda qeyd olunur:

- Kənd əhalisinin rifahının artırılması bölgələrin inkişafı fonunda həyata keçirilməlidir və bu əsas prioritet hesab edilir.
- Aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi üçün sahə üzrə sağlam rəqabət meyllərinin yaranması əsas meyara çevrilməlidir.
- Həyata keçirilən aqrar siyasət yalnız kənd təsərrüfatına büdcə vəsaitlərinin ayrılmasını nəzərdə tutmamalı, o həm də sahəyə göstərilmiş dövlət dəstəyindən səmərəli istifadə edilməsinə istiqamətlənməlidir. Bu aqrar sahədə dövlət siyasətinin əsas prioritetinə çevrilməlidir.
- Aqrar sektorun və regionların inkişafı baxımından ən önəmli məsələlərdən biri kənd təsərrüfatı məhsullarının istehsalında rayonlar üzrə ixtisaslaşmanın təmin edilməsidir. Unutmayaq ki, hər bir rayonun yerli xüsusiyyətlərinin, o cümlədən təbii-iqlim şəraitinin nəzərə alınması kənd təsərrüfatında və emal sənayesində uğurlu nəticə əldə etməyin başlıca şərtidir.
- İşğaldan azad edilən ərazilərdə aqrar sektorun inkişafı ilə əlaqədar davamlı layihələrin keçilməsi, bu sahələrdə əhalinin məşğulluğunun artırılması təmin edilməlidir.
- Araşdırmalar göstərir ki, inkişaf etmiş dünya ölkələri özlərinin aqrar sahə üzrə inkişaf strategiyasında həm idxalı əvəz edən, həm də ixrac potensiallı məhsulların istehaslını inkişaf etdirən modellərindən istifadə edirlər. Məlumdur ki, ölkəmizdə kənd təsərrüfatının sürətli inkişafı üçün əlverişli iqlim şəraiti mövcuddur. İxraca dövlət dəstəyinin göstərilməsi qabaqcıl ölkələrin xarici iqtisadi siyasətlərinin əsas tərkib hissəsidir. Qeyd edilənlərə əsaslanaraq ölkəmizdə də ixrac edilən məhsulları xarici bazarlara çıxartmaq və ixracın potensialının həcmini artırmaq məqsədilə istehsalçılar üçün effektiv şəraitin yaradılmasından başlayaraq yüksək innovativ

ixrac yönümlü istehsalın inkişafının stimullaşdırılmasını təmin edən layihərin icra edilməsi məqsədəuyğun hesab edilir.

- Təəssüf ki, müasir dövrdə əkin üçün nəzərdə tutulan kənd təsərrüfatı təyinatlı torpaqların əksəriyyəti müxtəlif səbəblərdən dolayı təyinatı üzrə istifadə edilmir, bəzi hallarda əkin sahələri örüş sahəsi kimi istifadə edilir. Buna görə də ən qabaqcıl strateji məqsədlərdən biri olan torpaqdan istifadənin effektivliyinin çoxaldılması üçün məqsədli layihələr həyata keçirmək və torpaqlardan təyinatı üzrə istifadəni təmin etməkdir.
- Ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə bağlı hazırlanmış Strateji Yol Xəritəsinin əsas prioritetlərdən biri kənd təsərrüfatı və emal məhsullarının ixracını təşviq etmək və dəstəkləməkdir. Buna nail olmaq ixracypotensiallı aqrar istehsalın inkişafındakı problemləri təyin etməkdən və bu istiqamətdə dövlət dəstəyini gücləndirilməkdən asılıdır. Məhz bu səbəbdən mütəmadi olaraq monitorinqlər həyata keçirlməli, aqrar sektorun ixrac və innovasiya imkanlarının çoxaldılması, bu istiqamətdə dövlət dəstəyinin və təşviqat mexanizmlərinin tətbiq edilməsi, aqrar sektorun rəqabətqabiliyyətinin çoxaldılması və xarici bazarlara çıxışının əlçatanlığı, sahibkarların iş mühitinin təkmilləşdirilməsi, institusional potensialın artırılması və s. istiqamətində layihələrin həyata keçirlməsi olduqca vacibdir.

Tədqiqat işinin 3-cü fəslindən əldə edilən nəticə və təkliflər aşağıda qeyd olunur.

- Ölkəmizdə yoxsulluq səviyyəsinin kəskin azaldılması, pul gəlirlərinin real artımı, dövlətin maliyyə imkanlarının genişlənməsi əhalinin alıcılıq qabiliyyətini də artırmışdır. Bu tələb hazırda daha çox xaricdən idxal edilən məhsullar hesabına ödənilir, bu səbəbdən yerli istehsal stimullaşdırılmalıdır. Başqa sözlə, əhalinin alıcılıq qabiliyyətli tələbi məhz yerli istehsalın hesabına ödənilməlidir. Təbii ki, biz buna inzibati yolla deyil, milli istehsalımızın rəqabətqabiliyyətini və potensialını artırmaqla nail olmalıyıq.

- EKTİS-in yaradılması ilə bağlı layihənin ölkəmizdə həyata keçirilməsi aqrar idarəetmədə ciddi keyfiyyət dəyişikliklərinə, nəzarət və hesabatlılığın daha yaxşı qurulmasına, aqrar sektora dövlət dəstəyinin səmərəli təşkilinə şərait yaratmışdır. Bu istiqamətdə görülən işlər daha da genişləndirilməli və əhali arasında müvafiq məlmatlandırma, maarifləndirmə işləri həyata keçirilməlidir. Belə ki, dövlət öz fermerini tanımalıdır, bu məqsədlə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan hər bir fermer EKTİS-də qeydiyyatdan keçməlidir.
- Hər bir rayonda aqrar sektorun inkişaf səviyyəsi nümunəvi təsərrüfatların fəaliyyəti ilə xarakterizə olunur. Azərbaycanın sahib olduğu münbit şəraitdən dolayı bütün bölgələri nümunəvi təsərrüfatlar poliqonuna çevrilməlidir. Onlar taxılçılıq, toxumçuluq, bağçılıq, üzümçülük tərəvəzçilik, heyvandarlıq və s. bu kimi istiqamətlər üzrə ən mütərəqqi təcrübəni nümayiş etdirməli və yaymalıdırlar.
- Məlumdur ki, fermerlərin dilə gətirdiyi əsas problemlərdən biri istehsal etdikləri məhsulların satışı ilə bağlıdır. Bəzən bu məqsədlə məhsulların dövlət tədarükü sisteminin təşkili, hətta dövlət tədarük şirkətinin yaradılması təklif edilir. Bu bizim üçün bir addım irəli, iki addım geri olardı. Bunu etmək əvəzinə özəl tədarük müəssisələri, treyder şirkətləri yaradılmalı və onların fəaliyyəti dəstəklənməlidir. Emal sənayesi və ixrac kanalı da satış probleminin həllində açar rolunu oynaya bilər. Liberal iqtisadiyyata malik olan bütün ölkələr təcrübələrində məhz bu yolu seçmişlər.
- Qeyd etmək lazımdır ki, ölkəmizdə əsas prioritet istiqamətlərdən biri olan ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir rayonun ərzaqla özünütəminetmə səviyyəsinin yüksəldilməsindən başlayır. Bunu nəzərə alaraq, rayonlar üzrə ərzaq balansları tərtib olunmalıdır. Yalnız bu halda, aqrar sektorun inkişafı sahəsində böyük potensiala malik olan rayonların kənd təsərrüfatı məhsulları ilə özünü hansı səviyyədə təmin etməsi və ya təmin edə bilməməsi ilə bağlı sualları cavablandıra bilərik

- İntensiv inkişaf, yüksək məhsuldarlıq, texnoloji yenilənmə aqrar sahədə dövlət siyasətinin həm prinsipləri, prioritetləri, həm də əsas vəzifələri kimi müəyyən edilmişdir. Bu vəzifələri reallaşdırmamış rəqabətqabiliyyətli məhsul istehsalına, aqrar sektorun modernləşməsinə və onun effektivliyinin təmin edilməsinə nail ola bilmərik. Qeyd olunanları nəzərə alaraq, hər bir rayon, kənd və təsərrüfat aqrar sektorun inkişafında bu prinsipləri daim rəhbər tutmalıdır.
- Kənd təsərrüfatında növbəli əkin sistemlərinin tətbiqinin genişləndirilməsi dayanıqlı kənd təsərrüfatı üçün olduqca vacibdir.
- Torpaqların keyfiyyətinin qorunması, təbii resursladan səmərəli istifadə üçün suvarılmasında müasir (effektiv) suvarma üsullarının (damcı, sprey, pivot və s.) tətbiqinin genişləndirilməsinə nail olunmalıdır.
- Hər fermerə düşən torpaq sahələrinin həcminin artırılmasına ehtiyac vardır. Buna həm iri kənd təsərrüfatı müəssisələrinin yaradılması, həm onlar arasında əməkdaşlıq əlaqələrin genişləndirilməsi, həm də vahid əkin sistemi və torpaqların konsolidasiyası metodlarını tətbiq etmək ilə nail oluna bilər.
- Aqrar sektorun dayanıqlığının təmin edilməsi məqsədilə fermerlər tərəfindən torpaqların aqrokimyəvi analizinin aparılmasının təşviqinə ehtiyac vardır.
- Aqrar sahənin rəqabətqabliyyətliyinin yüksəldilməsini təmin etmək üçün tətbiq edilən siyasətdə bir çox məsələlərin həyata keçirilməsi olduqca vacibdir. Bunlardan ən mühümü istehsalın rentabelliyinin yüksəldilməsini təmn etməkdir. Kənd təsərrüfatı sahəsində mühüm strateji hədəflərdən biri istehsalın intensivləşdirilməsi səviyyəsinin artırılmasıdır. Buna nail olmaq üçün differensial subsidiyalaşdırma mexanizmindən istifadə edilməsi zəruri hesab edilir. İnnovativ texnologiyaların tətbiqi və güclü kadr potensialı olmadan aqrar sahənin rəqabətqabliyyətlilik səviyyəsini yüksəltmək qeyri-mümkündür. İnnovativ texnologiyaların aqrar sahəyə tətbiqini və beynəlxalq təcrübəyə yiyələnərək, kadr potensialını artıran yeni layihələrin keçirilməsinə ehtiyac vardır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. “Azərbaycan Respublikasının regionlarının 2004-2008 - ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 11 fevral 2004-cü il, № 24.
2. “Azərbaycan Respublikasının regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 14 aprel 2009-cu il, № 80.
3. “Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 27 fevral 2014-cü il, № 118.
4. “Azərbaycan Respublikasının regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 29 yanvar 2019-cu il, № 500.
5. “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 27 iyun 2019-cu il.
6. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
7. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji yol xəritəsi” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 6 dekabr 2016-cı il.
8. Azərbaycan Dövlət Statistika Komitəsi (2023). *“Azərbaycanın kənd təsərrüfatı” (statistik məcmuə)*, Bakı, rəsmi nəşr, 703 səh.
9. Abasov İ.D., (2010). *“Azərbaycanın kənd təsərrüfatı”*, Bakı, “Elm və təhsil” nəşriyyatı, 590 səh.
10. Abasov İ.D., (2013). *“Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı”*, Bakı, “Şərq-Qərb” nəşriyyatı, 711 səh.

11. Abbasov İ.M., Əliyev T.N., (2018). *“Qeyri-neft sənayesinin iqtisadiyyatı”*, Bakı 2018, 267 səh.

12. Alıyev İ.H., (2007). *“Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri”,* Bakı, “Elm”, 227 səh.

13. Alıyev İ.H., (2012). “*Azərbaycan 2020: Aqrar sahənin inkişafının dövlət təminatı problemləri”*, Bakı, “Kooperasiya” nəşriyyatı, səh 10-17.

14. Ataşov B.X., (2017). *“Aqrar sahədə struktur və səmərəlilik problemləri”*, Bakı, “Kooperasiya” nəşriyyatı, 536 səh.

15. Babayev A.H., Babayev V.A., (2011*). “Ekoloji kənd təsərrüfatının əsasları”* Bakı, “Qanun” nəşriyyatı, 383 səh.

16. Əhmədov G.Ə., (2006). *“Azərbaycanın aqrar sahəsində innovasiyanın mənimsənilməsi sisteminin yaradılması”*, Bakı, “Nurlar nəşriyyat və poliqrafiya mərkəzi”, 125 səh.

17. Əliyev A.Ə., (1998). *“Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu”*, Bakı, “ Qarabağ Əlillər Cəmiyyəti Mətbəəsi”, 234 səh.

18. Əliyev İ.N., (1997). *“Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı”*, Bakı, “Azərnəşr”, 152 səh.

19. Əliyev R.M., (2003). *“Aqrar bazar və ərzaq təhlükəsizliyi məsələləri”*, Bakı, “Adiloğlu” nəşriyyatı, 102 səh.

20. Həsənova A.S., (2006). “*Aqrar islahatlar və sosiak-iqtisadi inkişaf”*, Bakı, “Qanun nəşrlər evi”, 126 səh.

21. Hüseyn R., Hüseynov R., Müseyibov A., (2020). *“Rəqəmsal transformasiya vasitəsilə Azərbaycanda Kənd Təsərrüfatının inkişafının sürətləndirilməsi”* (məqalə), Bakı, 149 səh.

22. Hüseynov M.C., (2006). *“Aqrar sahənin dayanıqlı inkişaf problemləri”*, Bakı, “Nurlar”, 302 səh.

23. Hüseynov M.J., (2004). “*Dayanıqlı aqrar sahənin formalaşdırılmasının aktual problemləri”*, AzETKTİ və Tİ-nin elmi əsərləri, 4 hissəli, IV h., Bakı, EL-Allianje.

24. Hüseynov T.F., (2021). *“Aqrar sənaye sahəsində innovasiya proseslərinə əsaslanan dayanıqlı inkişafın təmin edilməsi istiqamətləri” (məqalə)*, Bakı, № 4, 38

25. Hüseynova İ.M., (2020). *“Kənd təsərrüfatının dayanıqlı inkişafında elm, texnologiya və innovasiyaların rolu” (məqalə)*, Bakı, № 4, 34 səh.

26. Xəlilov H.A., Fikrətzadə F.F., (2020). *“Kənd təsərrüfatında dayanıqlı instensivləşdirmə: Post-transformasiya reintensivləşdirmə şəraitində imkanlar” (məqalə)*, Bakı, № 3, 33 səh.

27. İbrahimov İ.H., (2002). *“Aqrar iqtisadiyyatın aktual problemləri”*, Bakı, “Təhsil-Elm” nəşriyyatı, 220 səh.

28. İbrahimov İ.H., (2016). *“Aqrar sahənin iqtisadiyyatı” (monoqrafiya)*, Bakı, 655 səh.

29. “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 31 iyun 2018-ci il.

30. Qafarov N.C., (2009). *“Aqrar iqtisadiyyat”*, Bakı, “Kooperasiya” nəşriyyatı,180 səh.

31. Qarayev Ş., (2011*). “Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi”* dərslik, Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 611 səh.

32. Quliyev E.A., (2015). *“Aqrar iqtisadiyyat”*, Bakı, “Kooperasiya” nəşriyyatı, 320 səh.

33. Quliyev E.A., (2020*). “Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji iqtiqamətləri” (monoqrafiya)*, Bakı, 464 səh.

34. Qurbanzadə A.A., (2004*). “Aqrar strukturun regional inkişaf modeli: iqtisadi coğrafi konsepsiyası”*, Bakı, “Elm” nəşriyyatı, 431 səh.

35. Nuriyev C.Q., (2006). *“Siyasi sabitlik və aqrar islahatlar”*, Bakı, “Qanun” nəşriyyatı, 408 səh.

36. Nuriyev Ə.X., (2017). *“Davamlı və tarazlı regional inkişaf”*, Bakı, 240 səh.

37. Salahov S.V. və başqaları, (2002). “*Azərbaycanda aqrar islahatlar: konsepsiya, təcrübə və perspektivlər”*, Bakı, “ Təhsil NPM” nəşriyyatı, 286 səh.
38. Salahov S.V., (2004). *“Aqrar sahənin dövlət tənzimlənməsi məsələləri” (monoqrafiya)*, Bakı, 504 səh.

### Rus dilində

39. Алиев И., (2004), “Исторические этапы сельского хозяйства Азербайджана и перспективы его развития, (монография)”. Баку, “Баку- йшыг”, 377 стр.
40. Сумбат-заде А.С., (1958*), “Сельское хозяйство Азербайджана в 19-го в.”,* Баку, “Издательство Академии наук Азербайджанской ССР”, 363 стр.

### İngilis dilində

41. FAO, (2006). *“Agricultural policies and strategies: Concepts and practice”*, İtaly, “Easypol”, 12 p.
42. Fletcher A., Kubik W (2016). *“Women in Agriculture Worldwide”,* e-book, 290 p.
43. Lichtfouse E. (2020). *“Sustainable agriculture reviews”*, e-book, 40 p.
44. Lichtfouse E. (2020). “*Sustainable agriculture*”, "Springer Netherlands", 270 p p.
45. Magitra S., Pramanick B., (2020). *“Advanced agriculture”.* New Delhi, “New Delhi publisher” 128 p.
46. Mammadov G.G., (2013). *“Agrarian policy of Heydar Aliyev in Azerbaijan”*, Baku, “ Elm”, 333p.
47. Otsuka K., Shenggen F., (2021*). “ Agricultural development: New perspectives in a changing world”*. İFPRİ, 798 p.

48. Saka V.W., Maonga B.B., (2014). *"Agriculture and enviroment for developing countries"*, "Mzuni books no 10", 100 p.

49. Spielman D.J., (2006). *"A critique of innovation systems perspectives on agricultural research in developing countries" 41-54 p.*

50. The world bank (2005*). "Agricultural growth-agenda for development",* "Green press", 197 p.

51. Zhen, Lin & Routray, Jayant., (2003). *"Operational Indicators for Measuring Agricultural Sustainability in Developing Countries. Environmental management" 32 p.*

## İnternet resursları

52. https://www.agro.gov.az/az/news/06.09.2023

53. www.agro.gov.az

54. www.atm.gov.az

55. www.akia.gov.az

56. www.afaq.az

57. https://afsa.gov.az

58. https://azertag.az/xeber/oten_il_kendden_sehere_ve_bal_yarmarkalarinda_52_bolgeden_410_fermer_mehsul_satisa_chixarib-2901274

59. https://agro.gov.az/az/news/kend-yerlerinin-kompleks-inkisafi-layihesinin-hesabati-teqdim-olunub

60. https://nk.gov.az/az/xeberler/matbuat-xidmatinin-bulletenlari

61. https://www.stat.gov.az/source/agriculture/

62. https://tovillage.az

## CƏDVƏLLƏRİN SİYAHISI


| | | |
|---|---|---|
| **Cədvəl 1.** | **Kənd təsərrüfatı məhsullarının istehsalı** | **38** |
| **Cədvəl 2.** | **Kənd təsərrüfatının ümumi məhsulunun dinamikası və strukturu** | **38** |
| **Cədvəl 3.** | **Kənd təsərrüfatının ümumi məhsulu, mln manatla (müvafiq illərin faktiki qiymətlərilə)** | **40** |
| **Cədvəl 4.** | **Kənd təsərrüfatının dayanıqlılığının ölçülməsi üçün təklif olunan göstəricilər** | **59** |


## ŞƏKİLLƏRİN SİYAHISI


| | | |
|---|---|---|
| **Şəkil 1.** | **Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqlar, min ha** | **22** |
| **Şəkil 2.** | **2012/2022-ci illər ərzində əsas kənd təsərrüfatı prioritet bitkilərinin istehsal dinamikası (min ton)** | **23** |
| **Şəkil 3.** | **2012/2022-ci illər ərzində əsas heyvandarlıq məhsullarının istehsal dinamikası** | **24** |
| **Şəkil 4.** | **İllər üzrə mal-qara və quş əti istehsalı, min ton** | **25** |
| **Şəkil 5.** | **İllər üzrə süd və süd məhsulları istehsalı, min ton** | **25** |